# RƏSULZADƏ BƏLƏDİYYƏSİ: DAVAMLI İNKİŞAF YOLUNDA




**«Bələdiyyələr Azərbaycanda demokratiyanın inkişafında yeni bir mərhələdir.»**

**Heydər Əliyev**
**Azərbaycanın Ümummilli Lideri**

MƏCNUN ƏLİYEV

# RƏSULZADƏ BƏLƏDİYYƏSİ: DAVAMLI İNKİŞAF YOLUNDA

3708

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

BAKI-2007

ƏEE

Məcnun Əliyev

"M.Ə.RƏSULZADƏ BƏLƏDİYYƏSİ:
DAVAMLI İNKİŞ AF
YOLUNDA"

Bakı, "Nurlan" - 2007, 170 səh.+27rəngli səh.

Buraxılışa məsul: V.Cəfərov (Tofiqli)
Redaktor: M.Nazimoğlu
Tərcümə: L.Qafarlı, G.Səfərova

Edition responsible: V. Jafarov(Tofigli)
Editor: M.Nazimoglu
Translation: L.Qafarli, G Safarova

Ə $\frac{4702000000}{N-098-2007}$

ISBN 978-9952-8094-4-2

© "Nurlan", 2007



Ön söz

## Təşəbbüs və vətənpərvərlik olan yerdə uğur da var

ELDAR İBRAHİMOV
*Milli Məclisin Aqrar siyasət Daimi Komissiyasının sədri, millət vəkili*



Bu gün bələdiyyələr gündəlik yaşam tərzimizə elə daxil olub ki, artıq nə ictimai, nə də sosial həyatımızı onlarsız təsəvvür eləmək olmur. Azərbaycan ictimai həyatı üçün yeni olan bu yerli özünüidarə orqanları artıq çox qısa bir müddət ərzində özünü təsdiq edə bilmişdir. Əlbəttə, bu istiqamətdə geriliklər və ləngimələr, nöqsanlar hələ də mövcuddur. Lakin bir çoxları kimi mən bunu bələdiyyələrlə bağlı qanunlarda mövcud olan boşluqlarla bağlamıram. Çünki belədə adi məntiq bu cür sualın yaranmasına rəvac verir: əgər qanunlarda boşluqlar varsa və həmin boşluqlar bələdiyyələrin tam fəaliyyətinə mane olursa, onda niyə bir çox bələdiyyə orqanları öz işlərini günün tələbləri səviyyəsində qurmağı bacarırlar? Bu gün respublikamızda elə yerli özünüidarəetmə qurumları vardır ki, öz fəaliyyətini bələdiyyələrin klassik funksiyaları əsasında qurmağı bacarıb. Artıq həmin bələdiyyələrin fəaliyyət göstərdikləri ərazidə hökumətin, icra strukturlarının çiyinlərinə düşən bir çox vəzifələri məhz bələdiyyələr yerinə yetirir. Bu amillər isə gələcəkdə yerli özünüidarəetmə orqanlarının öz işlərini günün tələbləri səviyyəsində quracağına inam yaradır. Bəs qabaqcıl bələdiyyələri başqalarından fərqləndirən əlamətlər hansılardır? Mən bir millət vəkili olaraq bələdiyyələr haqqında qanun layihələrinin həm müzakirələrində, həm də qəbul edilməsində iştirak etmişəm. Etiraf edim ki, bizim Milli Məclisdə qəbul edilən qanunlar Avropa standartlarına tam uyğun gəlir və həmin qanunlar qəbul edilməzdən qabaq avropalı mütəxəssislərin də məsləhət və tövsiyələri nəzərə alınıb. Amma məsələ burasındadır ki, bələdiyyələrin fəaliyyəti birbaşa əhali ilə əlaqəli və bağlı olduğundan bəzən qanunların «gözündən» kənarda qalmış məsələlərlə də

rastlaşmalı olursan. Belə bir aforizm var ki, hətta ən ideal qanun da həyatın bütün tərəflərinə işıq sala bilmir. Üstəlik, həyat özü də daim inkişaf edir, özü ilə yeni xüsusiyyətlər gətirir, yeni problemlər ortaya çıxarır ki, bunlar da qanun yaradıcılığında hətta nəzəri baxımdan belə nəzərə alınmır və bu, heç mümkün də deyil. Digər bir tərəfdən müasir tələblərə cavab verən qanunların qəbulu zamanı bəzən milli-mental xüsusiyyətlər də nəzərə alınmır ki, bu da özlüyündə sonralar yeni problemlərin yaranmasına əsas verir. Məhz bütün bu məqamları nəzərə aldıqdan sonra istər-istəməz belə bir halla qarşılaşmalı olursan: istər bələdiyyə başqanı, istərsə də bələdiyyə üzvləri daim təşəbbüsdə olmalı, həyatın qarşıya çıxardığı problemlərin həlli üçün yaradıcı şəkildə işləməlidirlər. Bu zaman bələdiyyənin nüfuzu, bələdiyyə üzvlərinin əhali arasında üstün tutulan şəxsi keyfiyyətləri mühüm rol oynayır. Yəni ümumi götürüldükdə, əhali bələdiyyələrə inanmalıdır. Mən bir sakin olaraq Rəsulzadə bələdiyyəsinin ərazisində yaşayıram. Bələdiyyə seçkilərində yaxından iştirak etmişəm və seçkilərdən sonrakı mərhələdə həmişə də çalışmışam ki, sakini olduğum ərazinin bələdiyyə qurumunun fəaliyyətinə millət vəkili kimi deyil, sıravi vətəndaş kimi yanaşım və eyni zamanda onlar da məni maraqlandıran, mənə problem yaradan, mənim qarşılaşdığım çətinliklərə sıravi vətəndaşın problemləri və çətinlikləri kimi yanaşsınlar. Çünki yalnız bu halda seçici-bələdiyyə üzvü, sakin-bələdiyyə qurumu münasibətlərinin hansı səviyyədə olduğunu və ümumən bələdiyyələrin fəaliyyətini qiymətləndirməyin meyarını öyrənmək mümkündür.

Qeyd etdiyim kimi, Rəsulzadə bələdiyyəsinə seçkilər zamanı istər bir sakin və seçici, istərsə də millət vəkili olaraq yaxından iştirak etmişəm. Mən əhalinin seçkilərdə göstərdiyi fəallığı indi də unutmamışam. M.Ə.Rəsulzadə bələdiyyəsinin sədri Məcnun Əliyevə əhali tərəfindən göstərilən etimadın şahidi olmuşam. Seçkilərdən sonra məni maraqlandıran bir faktı da aşkarladım. Öyrəndim ki, Məcnun Əliyev seçkilər zamanı 12 mindən yuxarı səs toplayıb. Etiraf edim ki, bələdiyyə səviyyəsində bu, çox böyük rəqəmdir. Müqayisə üçün deyim ki, Məcun Əliyevdən sonra ikinci nəticə göstərmiş bələdiyyə üzvü ondan iki dəfə az-6 min səs toplamışdı. Elə bu faktın özü Məcnun Əliyevin əhali və seçicilər arasında nüfuz göstəricisini şərtləndirən əsas amillərdəndir. Məhz bu nüfuz, bu etimad onun yenidən bələdiyyə sədri seçilməsində mühüm rol oynadı. Bəs əhalinin bələdiyyə sədrinə bu etimadının arxasında nə durur? Xatirimə gəlir, hələ 1999-cu ildə respublikamızda ilk dəfə bələdiyyə seçkiləri keçirilərkən ümummilli



liderimiz Heydər Əliyev deyirdi: **"Təbiidir ki, beş ildən sonra bələdiyyə seçkiləri bundan da səviyyəli, bundan da keyfiyyətli keçiriləcəkdir. Güman edirəm ki, gələcəkdə bələdiyyələrə seçiləcək adamlar bu gün seçilənlərdən daha yüksək səviyyəli olacaqlar. Çünki ola bilər onların bir qismi bu beş il müddətində özlərini çox fəal göstərsinlər, vətəndaşların qayğısına qalsınlar, yerlərdə yerli məsələlərin həllində yaxından iştirak etsinlər, yaxud təşəbbüskar olsunlar, xalqa göstərsinlər ki, onlar nəsə ediblər. Onda onlar yenidən seçilə bilər və onların seçki təcrübəsi olacaqdır. İkinci tərəfdən də, indiyə qədər bəlkə də bələdiyyələrə maraq göstərməyən adamlar bələdiyyələrin işini müşahidə edəcəklər və gələn bələdiyyə seçkiləri təbiidir ki, bizim üçün, Azərbaycan üçün daha faydalı olacaqdır".** Ulu öndərimizin uzaqgörənliklə söylədiklərini olduğu kimi Rəsulzadə bələdiyyəsinin fəaliyyətinə şamil etmək olar. Məhz ilk bələdiyyə seçkilərindən sonra bu qurumun fəaliyyəti, gördüyü işlər seçicilərdə belə bir qənaətin yaranmasına şərait yaratmışdı ki, bu yeni idarəetmə forması əhalinin sosial problemlərinin həllində olduqca vacib rol oynaya bilər. Məhz ümummilli liderimizin müdrikcəsinə söylədiklərinin həyata keçirilməsi M.Ə.Rəsulzadə bələdiyyəsinin nüfuz dairəsini olduqca genişləndirmişdir. Bəri başdan deyim ki, bu gün Rəsulzadə bələdiyyəsi Azərbaycanda ən qabaqcıl özünüidarəetmə qurumlarındandır. Mən bələdiyyə ərazisində yaşayan sakinlərlə vaxtaşırı söhbətləşirəm. Özüm üçün belə bir faktı müəyyənləşdirmişəm ki, qəsəbədə əhalinin rastlaşdığı elə bir çətinlik və problem yoxdur ki, bələdiyyə ona müdaxilə etməsin, həlli yollarını araşdırıb onun aradan qaldırılmasını təmin etməsin. Rəsulzadə qəsəbəsində aparılan abadlıq və quruculuq işləri, qəsəbənin təmizliyi, yeni yolların salınması, dağılmış yolların abadlaşdırılması bilavasitə bələdiyyənin adı və fəaliyyəti ilə bağlıdır. Eyni zamanda Rəsulzadə bələdiyyəsinin Bakıda çəkilməsi nəzərdə tutulan Dairəvi yolla bağlı gördüyü işlər, həyata keçirdiyi tədbirlər diqqəti çəkir. Digər tərəfdən əhali ilə bələdiyyə qurumu arasında mövcud olan şəffaflıq problemlərin vaxtında üzə çıxmasını təmin edir ki, bu da öz növbəsində problemlərin vaxtında və sürətlə həllini şərtləndirir. Fikrimcə, Rəsulzadə bələdiyyəsinin təcrübəsinin digər özünüidarəetmə qurumlarına da tətbiq edilməsi artıq vaxtı çatmış məsələdir və inanıram ki, bu işdə həm bələdiyyə üzvləri, həm də qurumun sədri Məcnun Əliyev yenə də təşəbbüskarlıq göstərərək böyük bir entuziazmla öz iş təcrübələrinin yayılmasına çalışacaqlar.

## Bələdiyyə: nüfuz da qazana bilərsən, gözdən də düşə bilərsən

**Həsən Mirzəyev, professor**

Azərbaycanın müstəqilliyindən ötən 15 il ərzində respublikamızda istər hüquqi dövlət quruculuğu, istər demokratik təsisatların həyata keçirilməsi, istərsə də həm iqtisadi, həm də siyasi istiqamətdə reallaşan islahatların hamısı ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Respublikamızın prezidenti cənab İlham Əliyevin dediyi kimi, ulu öndərimiz müstəqil Azərbaycanın memarıdır və ölkəmizin istər beynəlxalq aləmdə nüfuz qazanması, istər bəşəri dəyərlərin və dünyaya inteqrasiya proseslərinin tətbiqi, istərsə də Azərbaycanın regionun lider dövlətinə çevrilməsi birbaşa Heydər Əliyevin adı ilə bağlıdır. Siyasətşünaslıqda Uinston Çörçilldən qalmış belə bir aforizm mövcuddur ki, siyasətçilər həmişə seçkilər haqqında, dövlət xadimləri isə gələcək nəsillər barədə düşünürlər. Bu mənada ulu öndərimizin yürütdüyü siyasi kurs, işləyib hazırladığı strategiya məhz gələcək nəsillərin, millətin və xalqın firavan həyatına hesablanıb. Ümummilli liderimiz deyirdi ki, vaxt gələcək, Azərbaycan dünyaya günəş kimi doğacaq. İndi vətənimiz iqtisadi sürət tempinə görə dünyada birinci yeri tutur və belə bir sürətin dünyada analoqu yoxdur. Həm də sürət tempi bu il daha yüksək şkalada özünü göstərəcək. Heydər Əliyevin işləyib hazırladığı strateji xətti onun ən layiqli davamçısı, dövlətimizin başçısı möhtərəm İlham Əliyev uğurla həyata keçirir. Sosial-iqtisadi islahatlar genişləndikcə, dərinə işlədikcə xalq bu islahatların nəticələrini görür, öz üzərində, yaşam tərzində hiss edir, onun maddi rifah halı yaxşılaşır, bu isə öz növbəsində mövcud hakimiyyətə inamı artırır, dövlətə sədaqət, dövlətçiliyə inam hissi aşılayır. Bu gün Azərbaycan sözün əsl mənasında böyük tikinti və quruculuq meydanını xatırladır. Şəhərlər, kənd və qəsəbələr estetik simasını dəyişir, demək olar ki, hər gün yeni istehsal sahələri fəaliyyətə başlayır, işini dayandırmış müəssisələr isə yenidən qurularaq məhsul istehsal edir. Beş-on il əvvəl insanlarımızın təsəvvürünə gətirməyəcəkləri uğur qazanılması son nəticədə dövlətimizin möhkəmlənməsini, onun lider dövlətlər sırasına çıxmasını şərtləndirən amillərdəndir. Bu gün Cənubi Qafqazda elə bir transmilli layihə yoxdur ki, həmin layihə Azərbaycanın razılığı olmadan reallaşdırılsın. Məhz bu xüsusiyyətlər vətənimizin tam müstəqil siyasət yeritməsini təmin edir, iqtisadi cəhətdən getdikcə qüdrətlənməsi digər dövlətləri ölkəmizlə hesablaşmağa məcbur edir. Öz siyasətində insan amilini önə çəkən respublikamızın prezidenti cənab İlham Əliyev öz çıxışlarında, bölgələrə səfərləri zamanı ictimaiyyətlə görüşlərində dəfələrlə vurğulayıb ki, bizim dövlət büdcəmiz sosial yönümlüdür. Çünki biz insan amilinə xüsusi diqqət yetiririk. Məhz bunun nəticəsidir ki, ölkəmizdə istər əmək haqları, istərsə də pensiya təminatı ilbəil artır. Artıq Azərbaycanın yolları həmin yollar, yaşayış məskənləri isə həmin yaşayış məskənləri deyildir. Müasir standartlara cavab verən, respublikamızın hətta ən ucqar kəndlərini belə ölkənin iqtisadi həyatı ilə bağlayan yolların çəkilişi, şəhər və kəndlərin simasının dəyişdirilməsi günün danılmaz reallıqlarındandır.



Xoş ovqat yaradan amillərdən biri də budur ki, ölkəmizin istər sosial inkişafının sürətlə inkişaf etməsində, istərsə də bir sıra iqtisadi islahatların həyata keçirilməsində bələdiyyələrin də rolu vardır. Hələ üç il bundan qabaq 2004-cü il fevralın 11-də respublika prezidenti tərəfindən «Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər) » imzalanarkən yerlərdə sosial-iqtisadi inkişafın butun parametrləri və xırdalıqları nəzərə alınıb. Bu mühüm dövlət sənədində həyata keçirilməsi nəzərdə tutulmuş müddəaların reallaşdırılmasında ölkəmiz üçün yeni idarəetmə orqanı olan bələdiyyələrin də fəaliyyəti nəzərdən qaçmamışdır. Dövlət Proqramının qəbul edilməsinin üç illiyi ilə bağlı görülən işlər müzakirə edilərkəq həm dövlətimizin başçısı, həm də digər çıxışçılar tərəfindən həmin amil vurğulanıb. Etiraf edək ki, hələ 90-cı illərin ortalarında yerli özünüidarəetmə orqanlarının fəaliyyəti barədə söz düşəndə çoxları bələdiyyələrin belə tezliklə ölkənin sosial həyatında xüsusi rol oynayacağını təsəvvürünə gətirmirdi. Lakin dünya təcrübəsinə arxalanaraq həmin qurumların fəaliyyət dairəsini və idarəetmədə oynayacağı rolu dəqiq qiymətləndirən ümummilli liderimiz Heydər Əliyevin təşəbbüsü ilə yerli özünüidarəetmə qurumlarının hüquqi bazası hazırlandı. Seçkilərə 4 ay qalmış bələdiyyələr, onların səlahiyyətləri və vəzifələri haqqında qanunlar qəbul edildi. Ən mühümü isə bu idi ki, bələdiyyələrin yaranması və onlara seçkilərin keçirilməsi qaydaları 1995-ci il noyabrın 12-də müstəqil Azərbaycanın qəbul etdiyi ilk Konstitusiyanın müvafiq müddəalarında öz əksini tapmışdı və buna görə də bələdiyyələrin təşkil

olunması, onun üçün seçkilərin keçirilməsi ən öncə Azərbaycan Konstitusiyasının əsasında idi və onun müddəalarının həyata keçməsini göstərirdi. Beləliklə, 1999-cu il dekabrın 12-də isə Azərbaycanın tarixində ilk dəfə olaraq bələdiyyələrə seçkilər keçirildi. Bu seçkilərə xüsusi diqqət göstərən ümummilli liderimiz Heydər Əliyev seçkilərdən iki gün əvvəl xalqa müraciət etdi. Bütün adıçəkilən proseslər gözümüzün qarşısında baş verdiyindən, zənnimcə geniş tarixi ekskursa ehtiyac yoxdur. Lakin bir məsələni mütləq vurğulamaq yerinə düşərdi ki, əhali bələdiyyələr barədə yalnız ümumi məlumata malik olduğundan yerli idarəetmə orqanlarının fəaliyyətinin mahiyyəti ilə tanış deyildi və məhz həmin amil seçkilərə münasibətdə də özünü göstərdi. Ancaq bütün hallarda yeniliyə münasibət, onun nəticələrini görmək həvəsi, eyni zamanda «yerli özünüidarəetmə» kəlməsindəki psixoloji cəlbetmə seçkilərin baş tutmasında və nəticələrin gözlənildiyindən yüksək olmasında həlledici rol oynadı. Əslində, yerli özünüidarəetmə forması demokratik təsisatların bir qoludur və hüquqi dövlətin yaranmasında, idarəetməyə ictimai nəzarətin formalaşmasında mühüm rol oynayır. Ulu öndərimiz Heydər Əliyev deyirdi ki, bələdiyyələrin seçilməsi, məsələn, bizim üçün, dövlət üçün, hökumət üçün xüsusi əhəmiyyət kəsb edir. Çünki indi bütün iş icra orqanlarının, hökumətin, dövlətin üzərindədir. Amma bələdiyyələr qeyri-dövlət təşkilatlarıdır, bunlar heç kəsə aid deyillər. Hərəsi öz işini müəyyən edir, onların heç bir tabeliyi yoxdur. Bunlar Azərbaycanda yeganə təşkilatlardır ki, heç kəsə tabe deyillər. Təbii ki, ümummilli liderimizin 8 il əvvəl seçkilərin gedişi zamanı jurnalistlərə söylədikləri bu fikirlər o zaman üçün cəmiyyətə qəribə gəlirdi. Çünki «heç kəsə tabe olmayan» idarəetmə qurumunun mövcudluğu 70 il totalitar sovet quruluşunda yaşamış insanlar üçün qeyri-adi idi və onlar bunu sadəcə olaraq psixoloji cəhətdən qəbul edə bilmirdilər. Lakin ötən illərin nəticələri və əldə edilmiş nailiyyətlər, bələdiyyələrin fəaliyyətində məzmun dəyişikliklərinin baş verməsi göstərdi ki, bu istiqamətdə həyata keçirilən tədbirlər son nəticədə demokratik idarə metodlarının tətbiqini qaçılmaz edəcəkdir. Sosial problemlərin seçkili orqanlar tərəfindən həyata keçirilməsi həmin orqanların istər iş göstəricilərini, istər məsuliyyət dərəcəsini təbii olaraq artırır. Çünki istər bələdiyyə üzvləri, istərsə də rəhbərlik məhz yerli əhalinin səsi ilə müəyyənləşir və bu baxımdan bu qurumun özünə də ictimai nəzarət, həm də səlahiyyəti olan nəzarət yetərincədir. Bu isə ölkəmizdə hüquqi dövlət quruculuğu ilə



yanaşı, vətəndaş cəmiyyətinin quruculuğunda da həlledici rol oynayacaq. İndi demək olar ki, bütün rayonların istər illik, istərsə də yarımillik hesabatlarında həmin bölgələrdə sosial-iqtisadi sahədə əldə edilmiş uğurlar təhlil edildikdə, burada bələdiyyələrin rolu xüsusi olaraq üzə çıxır və məhz həmin amil insanlarda bələdiyyələrə və bələdiyyə seçkilərinə marağı dəfələrlə artırır. Yerlərdə əhalinin sosial problemlərinin həllində bu gün yerli özünüidarəetmə qurumlarının fəaliyyəti əvəzsizdir. Çünki onlar bütün problemlərin lap yaxınlığındadırlar və bu problemləri əlləri hamıdan tez çatır. Üstəlik isə, onların yerli əhali tərəfindən seçilməsi seçicilərlə bələdiyyələrin arasında istənilən bürokratik maneəni yerindəcə dəf edir. Digər tərəfdən isə, əhali ilə bələdiyyələr arasında münasibətlər də daha səmimi və həyatidir. Çünki bələdiyyə üzvü seçicisindən yüzlərlə kilometr uzaqda yaşamır, onunla ayda bir dəfə görüşmür. Seçici ilə bələdiyə üzvü sadəcə qonşudurlar və əslində əhali üçün mövcud olan problemlər bələdiyyə üzvü üçün də xali deyil. Seçici seçdiyi adamı demək olar ki, hər gün görür. Nəhayət, seçici artıq problemin həlli üçün dövlətin icra strukturlarına deyil, bələdiyyə başqanlığına üz tutur. Burada onu yaxşı tanıyır, nə işlə məşğul olduğunu, hansı mənəvi keyfiyyətləri daşıdığını, əhali arasında nüfuz dərəcəsini yaxşı bilirlər. Bütün sadalanan amillər son nəticədə həm yerli özünüidarəetmə orqanlarının işinə əhalinin marağını və bununla birgə nəzarətini artırır, həm də bələdiyyə seçkilərinə daha ciddi yanaşmağa sövq edir. Biz 2005-ci ildə keçirilən və sayca ikinci olan bələdiyyə seçkilərində belə bir faktın şahidi olduq ki, insanlar artıq bələdiyyə seçkilərinə yüksək fəallıqla gəlirdilər. Bələdiyyə üzvlüynə namizədlərin sayının artması, bir yerə bəzən onlarla namizədin olması isə artıq bu qurumun az vaxt ərzində kifayət qədər nüfuz qazanmasının nəticəsi idir.

İllər ötdükcə Azərbaycanın sivil dəyərlərinin formalaşdığı Avropa məkanına inteqrasiyası da dönməz və sürətli xarakter alır. Bu isə öz növbəsində ölkəmizdə demokratik təsisatların daha da dərinləşməsinə, hüquqi dövlət quruculuğunun daha ardıcıl istiqamətlənməsinə səbəb olur. Yerli özünüidarəetmə orqanlarının fəaliyyətinin daha da formalaşması, onların işinin dünyanın qabaqcıl ölkələrinin təcrübəsinə uyğun olaraq qurulması isə ölkəmizdə vətəndaş cəmiyyətinin yaradılması istiqamətində həlledici mərhələlərdən biridir. Mən bir Rəsulzadə qəsəbə sakini kimi Rəsulzadə bələdiyyəsinin fəaliyyəti ilə yaxından tanışam və etiraf edim ki,

bələdiyyələrin əksəriyyəti bu cür fəaliyyət göstərsəydi, indi sosial problemlərin həllindən danışmaq lazım gəlməyəcəkdi. Bəzən düşünürəm: axı bütün qurumlar üçün bərabər imkanlar mövcuddur. Bəs onda niyə bəzilərinin işində geriləmələr, ləngimələr mövcuddur ki, bu da yalnız həmin ərazidə fəaliyyət göstərən bələdiyyə sədrlərini yox, bütövlükdə bütün yerli özünüidarəetmə orqanlarını nüfuzdan salır, başqalarının gördüyü titanik işləri kölgədə qoyur. Fikrimcə bunun bir səbəbi var: bələdiyyə sədri vətənpərvər, yanımcıl, elcanlı olmalı, öz məsuliyyətinin dərəcəsini hiss etməlidir. Yalnız bu mənəvi keyfiyyətlər onun işini yüksəldə bilər. Mən dəfələrlə görüşdüyüm, söhbət etdiyim, fikirlərini diqqətlə dinlədiyim Rəsulzadə bələdiyyəsinin sədri Məcnun Əliyevdə məhz bu cür keyfiyyətlərin şahidi olmuşam. Bir seçici olaraq qəsəbədə apardığım müşahidələr bir daha təsdiq edir deyim ki, Rəsulzadə bələdiyyəsi Azərbaycanda ən öncül və təcrübəsi, sözün həqiqi mənasında yayılmalı olan bələdiyyələrdəndir.



## GİRİŞ

### Bələdiyyələr hüquqi və demokratik dövlət quruculuğunun bir qoludur

Azərbaycanda bələdiyyə sisteminin yaradılmasına tariximizin yeni səhifəsinin yazılması kimi baxmaq lazımdır. Çünki bu yeni özünüidarə forması yalnız Azərbaycan üçün deyil, ümumiyyətlə postsovet məkanında mövcud olan bütün respublikalar üçün yeni idi. Mən bələdiyyələrin yarandığı ilk mərhələdən həmin proseslərin içərisindəyəm və istər seçki prosesləri, istərsə də bələdiyyələrin fəaliyyəti ilə bağlı təsəvvürlərim, bunun nəzəri və praktiki, habelə mənəvi və psixoloji tərəfləri barədə kifayət qədər təsəvvürlərə malikəm. Əlbəttə, belə təsəvvürün yaranmasında təcrübə köməyə gəlir və əslində bələdiyyə idarəetməsi elə bir sistemdir ki, burada nəzəri amillərdən çox təcrübə və fərdi keyfiyyətlər önə çıxır. Bəri başdan bir məsələni hökmən qabartmaq istəyirəm ki, bələdiyyələrə lokal bir məsələ kimi baxmaq düzgün deyildir. Ümumi götürüldükdə, bələdiyyələr demokratik təsisatların mühüm qollarından biri olmaqla yanaşı habelə ölkədə vətəndaş cəmiyyətinin formalaşması və yaranması istiqamətində irəliyə doğru atılan addımdır. Bu sivil qaydaların idarəetməyə tətbiqidir, yaxud idarəetmənin sivil və demokratik qaydalarla tətbiqidir. Bu isə öz növbəsində yerli idarəetmə qurumlarının fəaliyyətindən uzun illərdir ki, bəhrələnən və bu yöndə böyük uğurlar əldə etmiş Avropaya inteqrasiya üçün bir vasitədir. Eyni zamanda nüfuzlu beynəlxalq təşkilatların qapısından keçmək üçün açardır. Hələ 1999-cu ildə, ilk bələdiyyə seçkilərinin keçirildiyi ərəfədə ümummilli liderimiz, ölkəmizdə yerli özünüidarəetmə əsasını hazırlamış Heydər Əliyev seçkiləri müşahidə etmək üçün ölkəmizə gəlmiş Avropanın Yerli və Regional Hakimiyyətlər Konqresinin nümayəndə heyətini qəbul edərkən deyirdi ki, **"Biz yaxşı bilirik ki, Avropa Şurasına daxil olmaq eyni zamanda üzərimizə böyük məsuliyyətlər götürmək deməkdir. Məsələn, indiyə qədər Azərbaycanda bələdiyyələr olmamışdır. Bu sahədə bizim məsuliyyətimiz də yox idi. İndi seçkilər keçiriləcək, bələdiyyələr yaranacaq, şübhəsiz ki, bələdiyyələrin iş səviyyəsi Avropa Şurasında və başqa beynəlxalq təşkilatlarda müəyyən qədər qiymətləndiriləcək və bu da Azərbaycana olan münasibətə təsir**

**göstərəcəkdir. Amma biz özümüz bu çətinliklərə cəsarətlə giririk, Avropa Şurasının qapısını üç ildir döyürük və istəyirik ki, bu qapı ölkəmizin üzünə açılsın. Başa düşürük ki, bu, bizim məsuliyyətimizi daha da artıracaqdır. Yəni biz bunların hamısını şüurlu edirik. Çünki biz Avropa Şurasının tam bərabərhüquqlu üzvü olmaq, öz işimizi Avropa standartlarına uyğun qurmaq istəyirik, hüquqi, demokratik dövlət qururuq. Bu yol nə qədər çətin olsa da, bizim üçün o qədər də vacibdir, lazımdır".**

Göründüyü kimi, ulu öndərimiz bələdiyyələrin yaranmasını Azərbaycan üçün olduqca vacib məsələlərdən hesab etmiş, ölkəmizin dünyaya, xüsusilə Avropaya inteqrasiyası, hüquqi və demokratik dövlət quruculuğu istiqamətində prioritet məsələlərdən hesab edirdi. Bu baxımdan yerli özünüidarəetmə orqanlarının fəaliyyətinin hər hansı bir ərazi formatında anlaşılması və bələdiyyələrə yalnız yerli səviyyəli problemlərin həlli üçün yaradılmış qurum kimi baxılması fikrimcə kökündən yanlışdır.

Azərbaycanda bələdiyyələrin işinin necə qurulması barədə demək olar ki, bələdiyyələr yarandığı vaxtdan müzakirələr gedir. Həmin müzakirələrdə bəzi ziddiyyətli məqamlar üzə çıxır. Açığını deyim ki, mən buna təbii baxıram. İlk baxışda aydın olan budur ki, bələdiyyələrin hüquqi bazası üçün yetərincə qanunlar qəbul edilib, qaydalar mövcuddur və həm də bunlar Avropa ölkələrinin yerli öüzünüidarəetmə orqanlarının qanunlarına uyğun, müasir standartlara uyğun olaraq hazırlanıb. Lakin qanunlar öz yerində, məsələnin mənəvi-psixoloji və hətta mən deyərdim ki, milli-mental cəhətləri də var ki, artıq burada bələdiyyələr daha çox yaradıcılıq təşəbbüslərinə söykənməlidirlər. Məsələnin lokal xüsusiyyətlərini dəyərləndirərkən hansı parametrləri əsas götürmək lazımdır? Fikrimcə burada ilk növbədə insanların psixologiyasını önə çəkmək gərəkdir. Çünki psixoloji sədd yalnız idarəetmə metodlarında deyil, digər sahələrdə də özünü göstərir. Məsələn, bu il aprelin 13-də «Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı»nın qəbul edilməsinin üç illiyi ilə bağlı Nazirlər Kabinetində keçirilən müşavirədə respublikamızın prezidenti cənab İlham Əliyev öz dərin məzmunlu və hərtərəfli çıxışında belə bir fikri vurğuladı ki, bəzi insanlarda sosialist təfəkkür tərzi hələ də qalmaqdadır ki, bu da təbii ki, bazar iqtisadiyyatının tələbləri ilə səsləşmir, son nəticədə isə görülən işlərin sürətinə mane olur. Bu fikirlərlə razılaşmamaq mümkün deyil. Çünki bir bələdiyyə sədri olaraq mən, demək olar ki, hər gün bu tipli insanlarla rastlaşıram və bildirim ki, onların məsələlərə



öz yanaşma tərzi olduğu kimi, onlarla təmasda da fərqli prinsiplər olmalıdır. Qeyd etdiyim kimi, mən bələdiyyələrin fəaliyyətə başladığı vaxtdan həmin sistemin içərisindəyəm və onun formalaşması, qurulması gözlərimin qarşısında baş verib. İş elə gətirib ki, Rəsulzadə qəsəbəsində bələdiyyələr yarandığı gündən mən yerli özünüidarəetmə qurumunun sədri olmuşam. Ötən illər ərzində Binəqədi rayonunda çalışmış müxtəlif icra hakimiyyəti başçıları - Hüseyn Hüseynov, Fidumə xanım Hüseynova və indiki icra hakimiyyəti başçısı Alı Qocayevlə işləmişəm. Onların hamısı bələdiyyələrin formalaşıb ayaq tutmasında və inkişafında əllərindən gələni əsirgəməyiblər və deyim ki, idarəetmədə onların iş təcrübəsindən kifayət qədər istifadə etmişik. Əlbəttə, icra hakimiyyəti dövlət strukturu olduğundan kimsə düşünə bilər ki, bələdiyyə sistemində özünüidarəetmə prinsipi əsasdırsa, onda hakimiyyət strukturlarının inzibati idarəçilik metodlarının bələdiyyələrə tətbiqi necə mümkün ola bilər? Haqlı sualdır. Lakin həmin sualın öz cavabı vardır. Çünki burada söhbət inzibati idarəetmə metodlarının bələdiyyələrə tətbiq edilməsindən yox, hakimiyyət strukturlarının bələdiyyələrə köməyindən, onların işindəki irəliləyişlərə təkan vermələrindən, nəhayət, icra hakimiyyəti başçılarının adamlarla işləmək bacarığının mənimsənilməsindən gedir. Necə deyərlər, insan daha çox görə-görə öyrənir. Məsələn, Binəqədi rayonunda əzəmətli Heydər parkının salınması, rayonda geniş və hərtərəfli islahatların aparılması Hüseyn Hüseynovun vaxtında olmuşdusa, Fidumə xanımın çalışdığı dövrdə islahatların daha da təkmilləşdirilməsi, tikinti-quruculuq işləri başlanıldı. Hazırkı icra hakimiyyətinin başçısı Alı Qocayevin çalışdığı son illərdə Baksol deyilən ərazidə quruculuq işləri başlandı, tikinti böyük vüsət aldı, həmin ərazi tanınmaz dərəcədə dəyişildi, Bakı dairəvi yolun, habelə rayonun sosial-iqtisadi infrastrukturunun inkişafında gördüyü işləri qeyd etmək gərəkdir. Bu faktları ona görə sadalayıram ki, məhz hakimiyyət strukturlarının yaxından dəstəyi sayəsində bələdiyyələr, xüsusən də Rəsulzadə bələdiyyəsi əhali arasında yüksək nüfuz qazanmış, qəsəbədəki sosial problemlərin həllində əhalinin üz tutduğu və kömək gözlədiyi bir quruma çevrilmişdir. Məhz həmin amil yerli özünüidarəetmə qurumları haqqında əhalidə yaranmış bəzi mənfi təsəvvürlərin qarşısının alınmasında mühüm rol oynayıb. Bir vaxtlar bələdiyyələri az qala «torpaq satan» bir təşkilat kimi xarakterizə etməyə çalışanlar indi həmin fikirlərdən birdəfəlik əl çəkmişlər. Çünki məşhur misalda deyildiyi kimi, görünən dağa nə bələdçi?

Mən bələdiyyələrin fəaliyyətində mənəvi parametrləri qabardarkən məhz bu amili də nəzərdə tuturam ki, artıq yerli özünüidarəetmə qurumu əhali arasında ciddi bir təşkilat kimi tanınır . Bu isə insanlarda mənəvi amillərin artıq adi təsəvvürləri üstələməsinin bir nümunəsidir. Adamlar bələdiyyələrə daha tez «isinişir», onları özlərinə daha yaxın hesab edirlər. Çünki bu qurumda çalışanlar onların seçdikləri insanlardır. İnsanlar isə yalnız tanıdıqları adamlara səs verirlər ki, bunun da mənəvi amillər sırasına daxil olması artıq nəzəri yox, psixoloji məsələdir. Təbii ki, yerli özünüidarəetmədə bir sıra milli mental problemlər də özünü göstərir. Hər halda azərbaycanlı xasiyyət və xarakter etibarı ilə ingilis, yaxud fransız deyildir. Bir sıra məsələlər var ki, ona bizim öz milli və fərdi yanaşmamız mövcuddur. Bu daha çox özünü ümumi işlərdə göstərir. Xüsusən fərdiyyətçilik, kütləvi entuziazm və təşəbbüskarlıq məsələlərində bir sıra psixoloji sədlər vardır ki, bu da son nəticədə bələdiyyələrin tam potensialını göstərməyə imkan vermir. Yəni 70 il totalitar bir quruluşda yaşamış insanlar hər şeyi məhz idarəetmə orqanlarından gözləyirlər: fərqi yoxdur, bu, inzibati idarəçilik olsun, yaxud özünüidarəçilik. Bax, bu səbəbdən fikrimcə, Azərbaycan bələdiyyə sistemində çalışanların yaradıcılıq təşəbbüslərində bulunması olduqca vacib məsələlərdən hesab edilməlidir. İlk bələdiyyə seçkilərindən ötən illər ərzində öz şəxsi müşahidələrimə, habelə işin içərisində olan bir adam kimi bu qənaətə gəlmişəm ki, fəaliyyətini günün tələbləri səviyyəsində quran təşkilatlar sakinləri də öz arxasınca apara bilirlər. Çünki 1999-cu ildən üzü bəri bələdiyyə sistemi xeyli inkişaf edib və artıq onların bəzilərini iş təcrübəsi hamıda maraq oyadır. Bu kitabın yazılması da məhz həmin zərurətdən yaranıb. Hər halda Rəsulzadə bələdiyyəsi yarandığı vaxtdan etibarən öz fəaliyyətində böyük uğurlar qazanıb. Elə bilirəm ki, iki seçkidə bələdiyyə sədri seçilməyim, bələdiyyə quruculuğunun ilk günlərindən fəaliyyət göstərməyim mənə özünüidarə sistemi barədə düşündüklərimi oxuculara çatdırmağa, bələdiyyə sədri olaraq həyata keçirdiyimiz tədbirlər barədə söz deməyə, nəhayət iş prinsiplərim və fəaliyyət dairəm haqqında söz demək üçün mənə mənəvi haqq verir. Həm də bu ümiddəyəm ki, Rəsulzadə bələdiyyəsinin fəaliyyətindən və iş təcrübəsindən bəhs edən bu kitab digər bələdiyyə qurumları üçün də maraqlı görünə biləcək faktlarla da zəngin olduğundan onların da işinə yaraya bilər. Çünki bu gün respublikamızın sosial-iqtisadi inkişafının sürət götürdüyü, insanların maddi rifahının yaxşılaşdığı, ölkəmizdə sağlam



mənəvi atmosferin yarandığı, Azərbaycanın transmilli layihələrə qoşulduğu, iqtisadi qüdrətimizin artdığı bir dövrdə yerli özünüidarəetmə qurumlarının da fəaliyyətinin günün tələbləri səviyyəsində formalaşması, demokratik və hüquqi dövlət quruculuğu iştiqamətində ümumi işə yalnız fayda verə bilər. Artıq bələdiyyələr yalnız sosial yönlü problemlərin həllində deyil, ümumiyyətlə sosial-iqtisadi sahədə həyata keçirilən işlərin reallaşması istiqamətində olduqca mühüm rol oynamaqdadır. Onların belə fəaliyyəti həm yerli hakimiyyət orqanları tərəfindən dəyərləndirilir, həm də dövlət başçımız cənab İlham Əliyevin çıxış və məruzələrində yetərincə qiymətləndirilir. Bu baxımdan bələdiyyə sistemi ilə bağlı maarifləndirmə işinin aparılması və onların mahiyyəti barədə əhaliyə məlumatların verilməsi mühüm əhəmiyyət kəsb edir. Fikrimcə, Rəsulzadə bələdiyyəsinin fəaliyyətindən bəhs edən bu ktiab həm də bu istiqamətdə yardımçı rolunu oynayacaqdır.

***Yeri gəlmişkən:***

İlk addımın həmişə çətin olduğunu hər birimiz yaxşı başa düşürük. Xüsusilə insanların birbaşa məişəti və güzaranı, sosial həyatı ilə bağlı işlərdə yeni qaydaların tətbiqi və həmin qaydalırı tətbiq edən qurumun seçkilərlə müəyyənləşməsi daha böyük çətinliklə qarşılaşır. Sonunu bilmədiyin yolun yolçusu olmaq, qeyri-müəyyənliyə qarşı getmək səbr, iradə və dözüm tələb etdiyi kimi, həm də sədaqətli yol yoldaşı tələb edir. 1999-cu ildə respublikamızda keçirilən ilk bələdiyyə seçkilərindən sonra hamı kimi mən də bələdiyyə sədri olaraq bir qədər tərəddüd, bir qədər də həyacan içindəydim. «Necə olacaq», «Bizə göstərilən etimadı doğrulda biləcəyikmi» sualları qarşısında istər-istəməz duruxub qalırsan. Bir tərəfdən də əhalinin bələdiyyələrə münasibətin birmənlı olmaması da əlavə psixoloji problemlər yaradırdı. Bax, həmin çətin günlərdə mənimlə çiyin-çiyinə çalışan insanları-Rəsulzadə bələdiyyəsinin ilk üzvlərinin:- **Zakir Hüseynovu (Zəki İslam), Sabir Hüseynovu, Fəxrəddin Quliyevi, Ceyhun Alışanovu, Sadıq Əliyevi, Elman Məmmədovu, İsa Cahanovu, Mövsüm Kərimovu, İnqilab Ağalarovu, Pərviz Nəsirovu, Muxtar İmanovu, İsgəndər İsrafilovu, Adil Kətanovu, Nizami Əzizovun əməyini heç vaxt unuda bilmərəm. Adını çəkdiyim bələdiyyə üzvlərinin hər birinin bələdiyyənin formalaşmasında xüsusi əməyi olub.**

## Binəqədinin sosial-iqtisadi və mədəni inkişafı
## Tarixdən gələn səslər

Binəqədi-Azərbaycanın qədim yaşayış məskənlərindən sayılır. Bunu həm ərazidə aşkar edilmiş qazıntı nümunələri, həm də mövcud tarixi abidələr sübut edir. Tarixi abidələr baxımdan zəngin olan ərazidə Biləcəri, Binəqədi və Xocəsən məscidlərini göstərmək olar. Binəqədi məscidi Binəqədi kəndinin ən hündür hissəsində -1 minarəli, kvadrat zalı və hündür günbəzi olan tikilidir. Böyük zaldan əlavə, zal kimi bəzədilmiş 2 otaq da məscid kompleksinə daxildir. Binəqədi qəbiristanlığında 533, 555-ci il tarixli qəbir daşları vardır. Məscidin tikilməsi 849-cu ilə təsadüf edir. 1909-1914-cü illərdə isə məscidin minarəsi tikilməklə tamamlanıb. 1918-ci ildə ermənilər tərəfindən top atəşinə tutularaq zədələnmiş məscid binası 1989-90-cı illərdə təmir olunmuşdur.

Binəqədi toponimi haqqında versiyalar o qədər də çox deyildir. Bir sıra mülahizələrdə toponim «Binə qədim», yəni «Qədim binə» kimi izah edilir. Digər, daha çox səslənən başqa bir versiyada isə toponimin «binə» və «qadi» sözlərinin birləşməsindən yarandığı bildirilir ki, «qadi» sözü burada ərəbcədən götürülmüş «qazi» mənasındadır. Yəni «Qazinin binəsi». Bunu ərazinin tarixi məxəzlərdə, hətta XIX əsr mənbələrində «Binaqadi» və «Binaqazı» kimi adlandırılması da sübut edir.

Binəqədi - Abşeron yarımadasının özünəməxsus, bir sıra tarixi-etnoqrafik xüsusiyyətləri ilə fərqlənən yaşayış məskənlərindəndir. İstər faunasına, istərsə də florasına görə həmin fərqlər o qədər də müxtəlif olmasa da, Binəqədi yaşayış ərazisində tapılan arxeoloji nümunələr ərazinin yalnız Abşeron yaramadasında deyil, ümumiyyətlə Qafqazda ən qədim yaşayış məskənlərindən biri olduğunu sübuta yetirir. Binəqədi tapıntıları Abşeron yarımadasının Pleystogen faunası, hətta florası barədə də aydın təsəvvür yaradır. Bitki növlərinin zənginliyi və su ilə əlaqədar həşəratların çoxluğu burada şirin su olmasına sübutdur. O vaxt şirin su mənbələrindən biri heyvanların suvatı olmuşdur. Sonralar neftli laylarda gedən dəyişikliklər nəticəsində neft yerin üzünə çıxmış, və şirin su gölünə də axmışdır. Yüngül fraksiyalar buxarlandıqdan sonra gölün sahilində qalmış qatı neft təbəqəsi «tələyə» çevrilmiş, və buraya su içməyə gələn kərgədan, ibtidai öküz, nəhəng maral kimi güclü heyvanlar belə neft layına

3708



bataraq qalmışlar. Burada aşkar edilən 50 min növ onurğalı heyvandan 40-ı məməli, 110-u quş, 2-si sürünən, 1-i suda-quruda yaşayanlar olmuşlar. Bundan əlavə onurğasız heyvanlardan 102 növ həşərat, 22 növ bitki qalığı tapılmışdır. 1940-cı ildə Binəqədi yaxınlığında aparılan qazıntı işləri zamanı qədim kərgədanın elmə məlum olmayan növünün skeleti, həmçinin də quş və heyvan sümükləri aşkar edilmişdir. 1963-cü ildə Binəqədidə Tunc dövrünün sonlarına aid qəbirdən qadın skeleti, tunc üzük, sancaq, qolbaq, 200-ə qədər muncuq, cilalanmış qara boyalı gil qab parçaları, gil piyalə və sair aşkar edilmişdir. Binəqədinin qədim faunasını aşkar edən heyvan və quş qalıqları əsasən Binəqədidən 1 kilometr cənub-şərqdə, bitum yataqlarında aparılan qazıntı işləri zamanı Azərbaycan geoloqu Ə.Məstanzadə tərəfindən aşkar edilmişdir. Bir faktı qeyd etmək lazımdır ki, Binəqədi faunası heyvan qalıqlarının çoxluğuna və növlərinin müxtəlifliyinə görə Kaliforniyadakı Ranco-Lya-Brea asfaltlarında aşkar edilmiş Dördüncü dövr faunasından zəngindir. Binəqədi faunası nəinki Cənubi Qafqaz faunasının tarixi, hətta bütün Qafqaz, Ön Asiyanın və MDB-nin Avropa hissəsinin paleofaunasına aid mürəkkəb problemlərin həlli üçün böyük əhəmiyyətə malikdir.

Binəqədi neft yatağı da məşhurdur. Yataq Bakı şəhərindən 8-10 kilometr şimalda, Abşeron rayonunun mərkəzi hissəsindədir. Sahədə Keyrəki, Abıx, Ziyselperi, Keçəldağ, Kiçikdağ palçıq vulkanları , Böyük-şor, Masazır, Bostanarşor, Binəqədişor və başqa şor göllər vardır.

Keyrəki palçıq vulkanı ilk dəfə 1830-cu ildə püskürmüşdür. Vulkan indiyədək 14 dəfə püskürmüş, ən güclü püskürmə 1952-ci ilin avqustunda 4 saatdan artıq davam etmiş, 400000 m-ə yaxın vulkan brekçiyası yer səthinə çıxaraq 30 hektar sahəni örtmüşdür.

Son püskürmə 2001-ci il iyunun 26-da olmuş, hündürlüyü 15-20 metrə çatmışdır.

1896-cı ildə Binəqədidə sənaye üsulu ilə neft istehsalına başlanmışdır. Bakı neft sənayesinin 1870-1890-cı illərdə böyük sıçrayışla inkişaf etməsində rolu olan L.Nobelin təşəbbüsü ilə Binəqədi neft sahəsində neft anbarları və boru neft ötürücüləri tətbiq olunmuşdur. Bunlardan əlavə həmin ərazidə hələ də istifadə olunan Nobel qardaşları tikililərini göstərmək olar.

Hazırda Binəqədi rayonunun inzibati ərazisi 174 kvadrat kilometr olmaqla əhalinin rəsmi sayı 2006-cı il 1 aprel tarixə 221060 nəfərdir. Rayon

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

ərazisində Ermənistan respublikasında etnik təmizləmə nəticəsində 15577 nəfər qaçqın daimi, Dağlıq Qarabağ və digər işğal edilmiş rayonlarımızdan olan 26648 nəfər məcburi köçkün əhali isə müvəqqəti məskunlaşmışdır.

Rayonun inzibati ərazi vahidinin yaranması 1920-ci ilə təsadüf edir. Azərbaycan SSRİ-nin tərkibində olduğu illərdə rayon Kirov adını daşımış, 1991-ci ildən isə Binəqədi adlandırılmışdır. SSRİ dövrundə, xüsusilə ümumilli liderimiz Heydər Əliyevin respublikamıza başçılıq etdiyi 1969-1982-ci illərdə Binəqədi inkişaf edərək iri sənaye rayonuna çevrilmiş, rayon ərazisində iri sənaye müəssisələri, fabrik və zavodlar fəaliyyət göstərmişdir. Həmin illərdə rayonda yaşayış və inzibati binaların da tikintisi geniş vüsət almışdır. Respublikamız müstəqillk qazandıqdan, ulu öndərimiz Heydər Əliyev xalqın tələbi ilə 1993-cü ilin iyununda yenidən hakimiyyət başına gəldikdən sonra Binəqədidə genişmiqyaslı işlər görülmüş, tədbirlər həyata keçirilmişdir. Məhz bu illərdə rayonun siması kökündən dəyişdirilmiş, insanların sosail rifah halı yaxşılaşmış, bu isə öz növbəsində onlara yeni, müasir memarlığın tələblərinə cavab verən fərdi evlər tikməyə imkan yaratmışdır. Rayon ərazisində çirkab suların yığıldığı böyük ərazilər qurudularaq burada xiyabanlar salınmış, yaşayış binaları tikilmiş, yol salınmışdır. Xüsusilə sosial-iqtisadi təmayüllü obyektlərin işə salınması qarşıya çıxan bir sıra problemlərin həllini təmin etmişdir. Hazırda rayonda 689 ticarət və ictimai iaşə, 420 xidmət, 48 sənaye istehsal, 68 tikinti, 1 rabitə, 27 yanacaqdoldurma, 22 aptek, 12 birgə, 15 nəqliyyat, 3 yardımçı təsərrüfat, 3 kənd təsərrüfat müəssisəsi fəaliyyət göstərir.

İndi Binəqədi rayonunda qədim tarixi abidələrlə yanaşı müasir sağlamlıq və istirahət kompleksləri də fəaliyyət göstərir. Belə ki, rayon ərazisində 1 olimpiya-idman kompleksi, 3 mehmanxana, 3 iri park, 1 muzey, 2 mədəniyyət evi, 3 kinoteatr, 9 kitabxana vardır. Əhaliyə 13 səhiyyə müəssisəsi, o cümlədən 6 saylı şəhər xəstəxanası xidmət göstərir. Təhsil sahəsində isə 3 ali məktəb, 30 ümumtəhsil orta məktəbi, 38 uşaq bağçası, 2 məktəbdənkənar müəssisə, 4 texniki peşə liseyi, uşaq gənclər idman məktəbi fəaliyyət göstərir. Rayon ərazisində 5 mikrorayon və 5 qəsəbə vardır. Hazırda 5 yerli özünüidarəetmə orqanı olan bələdiyyə mövcuddur ki, onlardan da haqqında bu kitabda bəhs edilən Rəsulzadə bələdiyyəsini istər fəaliyyət spektri, istərsə də iş prinsipi ilə ölkənin qabaqcıl yerli özünüidarəetmə qurumlarından hesab etmək olar. Bu fikir növbəti bölümlərdə də öz əksini tapacaq.



## Uğurlar haradan qaynaqlanır?
## Rəsulzadə bələdiyyəsinin qabaqcıl iş təcrübəsinə sözardı

İstər yerli sakinlər, istərsə də kənardan Rəsulzadə bələdiyyəsinin fəaliyyətini izləyənlər üçün maraqlı olan bir sual var: Rəsulzadə bələdiyyəsinin uğurları haradan qaynaqlanır? Əlbəttə, söhbət, tutaq ki, ədəbiyyatdan getsəydi, bu mənbəyi aşkarlayıb həmin suala asanlıqla cavab vermək olardı. Amma indiki halda məsələ sırf işgüzar ahənglə bağlı olduğundan suala adi cavab vermək mümkün deyildir. Bir bələdiyyə sədri olaraq həm də bu qənaətdəyəm ki, əslində hər iki zümrə həm ərazidə yaşayan əhali, həm də kənardan fəaliyyətimizi izləyənlər üçün görülən işləri sadalayıb həmin sualı cavablandırmaq elə də çətin olmazdı. Amma elə bilirəm ki, buna hacət yoxdur. Çünki bələdiyyələrin fəaliyyəti də, gördüyü işlər də daim göz qabağında olduğundan məntiqi cəhətdən heç bir suala ehtiyac yaranmır. Lakin məsələ burasındadır ki, bu yerli özünüidarəetmə qurumu öz uğurlarını ilbəil artırır, daha yüksək nailiyyətlər əldə etmək istiqamətində təşəbbüslərini genişləndirir, başqalarının risk edib girişə bilmədiyi işlərə qol qoyur və son nəticədə əhalinin sosial problemlərinin həlli, həm də öz büdcəsini artırmaq istiqamətində diqqətçəkən uğurlar əldə edir. «Qaynaqlanma»nın mənbəyini elə burada da axtarmaq olardı. Lakin məncə, belə bəsit izah sorğu sahiblərini elə də razı salmazdı. Fikrimcə burada, «uğurların haradan qaynaqlanması» müstəvisində bir neçə faktor rol oynayır. Bu, birinci növbədə əhalinin bələdiyyələrə seçki zamanı öz seçimini düzgün etməsidir. İndi Rəsulzadə bələdiyyəsində çalışanların hamısı təcrübəli insanlardır, bələdiyyə üzvü olmazdan qabaq xalq təsərrüfatının müxtəlif sahələrində çalışmışlar və ona görə də işə haradan başlamağı yaxşı bilirlər. Bu isə öz növbəsində həm onlarda təşkilatçılıq vərdişlərinin yaranmasında, həm əhali ilə təmasların qurulmasında, həm də işə məsuliyyət dərəcəsinin artırılmasında əhəmiyyətli rol oynayır. İkinci faktor ondan ibarətdir ki, bələdiyyənin fəaliyyətində meydana çıxan kəm-kəsirlər qısa bir müddətdə həll olunur ki, bu da bütövlükdə yerli özünüidarəetmə qurumunun nöqsansız fəaliyyət göstərməsini şərtləndirən mühüm amillərdəndir. Fikrimcə, hər hansı qurum ən əvvəl özünə tənqidi yanaşmalıdır. Nəhayət üçüncü faktor bələdiyyənin Binəqədi rayonunun əsas inzibati ərazisi

Rəsulzadə qəsəbəsində yerləşməsidir ki, buranın əhalisi kənar ərazilərə nisbətən ictimai cəhətdən daha çox aktivdir və fərdiyyətçi düşüncənin yerini ictimai yanaşmaya verə bilirlər. Burada sakinlərin intellektual potensialı da rol oynayır. Həmin potensialın mövcudluğu da ikili xarakter daşıyır. İctimai tərəfdən yanaşdıqda intellektualı yüksək olan əhali ilə işləmək asandır və onlara hər hansı məsələnin xırda detallarını izah etmək lazım gəlmir. Lakin mental baxımdan yanaşdıqda, bələdiyyə üzvləri üçün problemlər üzə çıxır. Əvvəla bələdiyyələr yeni idarəetmə qurumu olduğundan onların fəaliyyətində məhz bələdiyyə üzvlərinin özlərindən irəli gələn problemlər mövcuddur. Yəni seçici intellektual cəhətdən nə qədər hazırlıqlıdırsa, bələdiyyə üzvü üçün onunla işləmək ictimai baxımdan asan, milli mentalitet baxımdan çətindir. Çünki çox vaxt bələdiyyə üzvü psixoloji baxımdan mental çərçivədən çıxa bilmir. Savadlı seçici isə daha çox tələbkar olduğundan onunla işləmək üçün bələdiyyə üzvü də intellektual cəhətdən hazırlıqlı olmalıdır. Çünki hazırlıqlı seçici bələdiyyənin hansı funksiya daşıdığını, hansı səlahiyyətlər çərçivəsində fəaliyyət göstərdiyini, onun hüquqi bazasının necə olduğunu bilir, beləcə dunya təcrübəsinin müxtəlif tərəflərini yaxşı bildiyindən onunla «başdansovdu» danışmaq, yaxud belə sakini başdan eləmək mümkün deyildir. Rəsulzadə bələdiyyəsinin üzvləri məhz intellektual cəhətdən hazırlıqlı olduqlarından yuxarıdakı problemlərlə qarşılaşmırlar. Əksinə, məhz onların hüquqi-praktiki cəhətdən hazırlığının nəticəsidir ki, ərazidə yaşayanlar bələdiyyənin fəaliyyətindən razıdırlar.

Digər tərəfdən isə Binəqədi rayonunun əsas infrastrukturlarının Rəsulzadə qəsəbəsində yerləşməsi yerli bələdiyyənin fəaliyyətində özünəməxsusluqlar yaradır. Bununla bağlı qeyd etmək yerinə düşər ki, uğurlarımızın əldə olunmasında Milli Məclisin Regional məsələlər daimi komisiyası ilə, həmçinin Ədliyyə Nazirliyinin Bələdiyələrlə iş mərkəzi ilə qurduğumuz əməkdaşlıq əlaqələrini yüksək səviyyədə olması da qazandığımız nailiyyətə öz müsbət təsirini göstərib. Digər yerli özünüidarəetmə qurumlarından fərqli olaraq Rəsulzadə bələdiyyəsinin fəaliyyəti və həyata keçirdiyi tədbirlər yalnız seçicilərin deyil, həm də yerli hakimiyyət strukturlarının, infrastrukturun digər pillələrinin: yerli icra hakimiyyəti, prokurorluq, polis və məhkəmə təmsilçilərinin gözləri qarşısında olur. Yəni bələdiyyənin fəaliyyətinin qiymətləndirilməsi həm qeyri-rəsmi, həm də rəsmi xarakter daşıyır. Digər tərəfdən rayonun əksər



icra strukturları bizim qəsəbədə əhalinin xidmətində dayanırlar. Bu isə öz növbəsində Rəsulzadə bələdiyyəsinin çoxsaylı kollektivinin məsuliyyətini artırmaqla üzərimizə düşən vəzifələri daha şərəflə yerinə yetirməyə sövq edir. Əlbəttə, fəaliyyətimizi ümumi şəkildə xarakterizə etdikdə deməliyəm ki, işə başladığımız gündən etibarən əsas məqsədimiz seçicilərimizin etimadını doğrultmaq və qanunvericiliklə üzərimizə düşən vəzifələri layiqincə yerinə yetirmək olub. Amma bu, ayrı-ayrılıqda görülən işləri, həyata keçirilən tədbirləri tam ehtiva etmir. Çünki qeyri-təvazökarlıq olsa da deməliyəm ki, ötən illərdə Rəsulzadə bələdiyyəsi doğrudan da nəhəng işlər görüb və indi keçilən yola nəzər saldıqda görürsən ki, həyata keçirilən tədbirlərin siyahısı nə qədər uzun da olsa, problemlər qalmaqdadır və məhz bu məqamda mən «Rəsulzadə bələdiyyəsinin uğurları haradan qaynaqlanır» sualını cavablandırmaq istəyirəm. Həmişə bu əqidədə olmuşam ki, dünyada xalqa, millətə, vətənə xidmət eləmək qədər şərəfli iş yoxdur. Mən çox xoşbəxtəm ki, mənimlə çiyin-çiyinə çalışan bələdiyyə üzvləri də bu əqidədədirlər.

Bu gün ötənlərə nəzər saldıqda görürəm ki, indiyədək fəxr etməli elə tədbirlər həyata keçirmiş, elə işlər görmüşük ki, indi əhali həmin işlərin bəhrəsini dadır. Məsələn, fəxr və qurur hissi ilə qeyd etmək olar ki, respublikamızda da ilk dəfə olaraq bələdiyyə öz maliyyə vəsaitləri hesabına fəaliyyət göstərdiyi ərazidə - Rəsulzadə qəsəbəsində Binəqədi İcra Hakimiyyəti ilə birlikdə Ümummilli Liderin doğum gününə hədiyyə olaraq "Heydər parkı" salmışdır. Ulu öndərimizin adını daşıyan istirahət parkı indi əhalinin ən sevimli istirahət guşələrindən biridir. Biz parkı əhalinin ixtiyarına verdikdən sonra ordan əlimizi çəkməmişik. Bələdiyyə daim istirahət parkının təmizliyinə, gözəlləşməsinə, florasının zənginləşməsinə fikir verir. İndi bu park yalnız böyüklərin deyil, uşaqların da sevimli istirahət yerinə çevrilib. Xeyli vaxtdır ki, parkda uşaqlar üçün kiçik attraksionlar quraşdırılıb.

Azərbaycanda bələdiyyə institunun yenicə qurulduğu bir vaxtda büdcəyə əlavə vəsaitlərin cəlb edilməsi bələdiyyə üçün günün vacib məsələlərindən birinə çevrilib. Ərazidə hələ keçmiş sovet dövründən mövcud olan bataqlıqlar, neft tullantıları nəticəsində yaranmış gölməçələr məhz Binəqədi rayon İcra Hakimiyyətin təşəbbüsü ilə bələdiyyə tərəfindən qurudulmuş, mənzil şəraiti ağır olan insanların mənzil problemlərinin həlli və ərazidə sahibkarlığın inkişafı, habelə yeni iş yerlərinin açılması məqsədi

ilə əhalinin istifadəsinə verilmişdir. İndi həmin yerlər tanınmaz dərəcədə dəyişmişdir. Bir vaxtlar torpağın-qumun tozanaq elədiyi, çirkab suların qoxusundan yaxın gedilməsi mümkün olmayan Baksol adlandırılan ərazidə bu gün onlarla ictimai-iaşə obyektləri tikilmiş, yaşayış evləri salınmışdır. Qeyd edək ki, bələdiyyə bu istiqamətdə işləri davam etdirir və yaxın gələcəkdə Baksol təkcə rayonumuzun deyil, ümumiyyətlə, paytaxtımızın ən abad yaşayış massivlərindən olacaqdır.

Bir qədər əvvəldə mən bələdiyyələrin fəaliyyətində risk amilindən danışarkən onların iş prinsiplərinin müxtəlifliyini diqqətə çatdırmaq istəyirdim. Bu baxımdan Rəsulzadə bələdiyyəsi tam fərqlənir və bəzən başqalarının təsəvvürünə də gətirə bilmədiyi ağır işlərin altına girir və bu zaman risk etməkdən də çəkinmir. Xüsusi ilə qeyd etmək yerinə düşərdi ki, Rəsulzadə bələdiyyəsi istər Binəqədi rayonu, istərsə də respublika bələdiyyələri arasında büdcə gəlirlərinə görə ilkin yerlərdən birini tutur.

**Həyatın bütün sahələrində olduğu kimi, bələdiyyə sistemində də müasir standartların, çağdaş texniki üsulların tətbiqi qaçılmazdır. Rəsulzadə bələdiyyəsi də həmin standartlardan geri qalmamaq üçün müasir texniki kommunikasiya sistemindən yararlanır. Artıq vergi yığımı sahəsində kodlaşdırma sisteminə keçid başa çatdırılıb. Müasir informasiya texnologiyalarının tətbiqi nəticəsində bələdiyyə vergi abunəçilərinin hamısını qeydiyyata almış, onların hər biri üçün kod vermişdir. Maraqlı cəhətlərdən biri də odur ki, vergiyə cəlb olunan hər bir abunəçinin haqqında bələdiyyənin kompyuter bazasında informasya yerləşdirilib. Qeyd etməliyik ki, bu sistem də respublikamızda ilk dəfə olaraq Rəsulzadə bələdiyyəsində tətbiq olunub.**

Göründüyü kimi, həyat inkişaf etdikcə, idarəetmə metodları da təkmilləşir və insanların yaşam tərzinin tələbinə uyğun olaraq dəyişir. Hər hansı tələb isə təbii olaraq yeni təklif ortaya çıxarır. Bələdiyyələrin digər idarəetmə qurumlarından fərqi odur ki, onun fəaliyyəti, təklifləri və təşəbbüsləri birbaşa sakinlərin, seçicilərin istəyini əks etdirir. Burada inzibati metodlar rol oynamasa da, mövcud qanunların həyata keçirilməsi, fəaliyyətin məhz qanunlar çərçivəsində həyata keçirilməsi də qaçılmazdır. Elə bələdiyyələrin bir spesifik cəhəti də bundan ibarətdir ki, mövcud çərçivədə kənar istəklərlə də üzbəüz qalmalı olurlar. Ona görə də bələdiyyələr haqqında qəbul edilmiş qanunlarda təkmilləşdirmə həmişə olacaqdır. Çünki problemləri sakinlər yox, həyatın özü üzə çıxarır. Sadəcə sakinlər həmin problemlərlə rastlaşırlar və onu ilkin olaraq məhz bələdiyyələrə



çatdırırlar. Bu istiqamətdə Rəsulzadə bələdiyyəsi zəngin təcrübəyə malikdir. Seçicilərlə bələdiyyə arasındakı şəffaflıq həm bələdiyyənin fəaliyyətinin göz qabağında olmasını zəruri edir, həm də yerli özünüidarəetmə qurumuna əhalinin rastlaşdığı problemləri vaxtında görməyə və onu həll etməyə imkan yaradır. Fikrimcə, yerli özünüidarəetmə orqanlarının klassik funksiyası məhz bundan ibarətdir.

Hərdən «Rəsulzadə bələdiyyəsinin iş təcrubəsi» fikri ilə rastlaşarkən özümü çox xoşbəxt sayıram. Təcrübə boş yerdən yaranmır. Yalnız əməli iş görməklə, praktiki fəaliyyətlə, əldə edilmiş nəticələrin tutarlı olması ilə təcrübə qazanılır ki, bunun da mayasında zəhmət və alın təri dayanır. Burada həm də tarixi məqamlar var. Məsələn, mən inanıram ki, bir vaxtlar «Azərbaycanda bələdiyyə tarixi» anlayışı mövcud olacaqdır və həmin istilah səslənəndə mütləq Rəsulzadə bələdiyyəsinin adı da çəkiləcəkdir. Çünki bu qurum Azərbaycanın yeni tarixinin bir hissəsi olan yerli özünüidarəetmə orqanlarının yaranmasında, formalaşmasında və təşəkkül tapmasında əhəmiyyətli rol oynayıb.

Ona görə də bu gün hamımız - bir bələdiyyə sədri kimi mən də, bələdiyyəmizin üzvləri də yaxşı dərk edirik ki, biz tarixi anlar yaşayırıq, Azərbaycan tarixinin yeni bir mərhələsini yaradır və yazırıq.

Elə buna görə işləməyə, zəhmət çəkməyə dəyər.

## Bələdiyyənin davamlı inkişaf yolu: faktlarda və rəqəmlərdə

Məlumdur ki, ölkəmizdə bələdiyyələrin yaranması, formalaşması və hüquqi bazası məhz Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Heydər Əliyevin fəaliyyəti dövründə, 12 noyabr 1995-ci ildə qəbul edilən Azərbaycan Respublikasının Konstitusiyasında ilk dəfə olaraq bələdiyyələrin hüquqi statusu qanun çərçivəsində müəyyənləşdirilib. Dövlətçilik tarixinə mühüm hadisə kimi daxil olan bu tarixi gündən sonra, 1999-cu ilin dekabrında ilk bələdiyyə seçkilərinin keçirilməsi ilə hakimiyyətin əksmərkəzləşməsi prosesinə start verildi. Ümummilli Liderimizin səyi ilə dövlət quruculuğu sahəsində aparılan islahatlar nəticəsində və Avropa Şurasının təklifləri nəzərə alınmaqla ölkəmizdə bələdiyyə institutu yaradıldı. Milli lider Heydər Əliyev öz çıxışlarında bələdiyyə institutunun yaranmasına, bu sistemin fəaliyyətinə belə münasibət bildirirdi: "Bələdiyyə seçkiləri Azərbaycanda ilk dəfə keçirilir. Bələdiyyələrin yaranması və onlara seçkilərin keçirilməsi haqqında 1995-ci ildə müstəqil Azərbaycanın qəbul etdiyi ilk Konstitusiyada müvafiq müddəalar üz əksini tapıbdır. Buna görə də bələdiyyələrin təşkil olunması və onun üçün seçkilərin keçirilməsi öncə Azərbaycan Konstitusiyasının əsasındadır və Konstitusiyanın müddəalarının həyata keçirilməsini göstərir". Digər bir çıxışında milli lider belə bir məqama da toxunub: "Biz Azərbaycanda tam müstəqil yerli özünüidarəetmə orqanları yaradırıq. Bu, həm demokratiyanın inkişafı deməkdir, eyni zamanda ölkəni idarə etməkdə vətəndaşlarımıza imkanlar yaranmasının göstəricisidir.... Yerli idarəetmə orqanları isə yerlərdə onların səlahiyyətləri çərçivəsində, qanun çərçivəsində çox işlər görə bilərlər. Bələdiyyələr dövlətin də gördüyü işlərin böyük bir hissəsini öz üzərlərinə götürəcək, dövlətin də yükünü müəyyən qədər yüngülləşdirəcəklər. Ona görə bələdiyyələrin seçilməsi, onların təşkil edilməsi, gələcək fəaliyyəti bizim cəmiyyətimiz üçün, dövlətimiz üçün və hər bir vətəndaş üçün çox vacibdir".

Göründüyü kimi, ümummilli liderimiz tərəfindən yerli özünüidarəetmə orqanlarını yaradılmasının həm də əhalinin sosial, mədəni və məişət problemlərinin kompleks şəkildə həllinin vaxtında və keyfiyyətlə yerinə yetirilməsi baxımından zəruriliyi gündəmə gətirilib. Vətəndaş cəmiyyətinin əsas atributlarından sayılan yerli özünüidarə orqanlarını elə təşkil etmək tələb olunurdu ki, insanlar öz həyat fəaliyyətində yerli özünüidarəetmə orqanlarının varlığını və zəruriliyini hiss etsin.



Məhz milli liderin tövsiyəsi və xeyir-duası ilə formalaşan və fəaliyyətə başlayan bələdiyyələr artıq 8-ci ildir ki, yerli özünüidarəetmə qurumu kimi özünü təsdiq etməkdədir. Ötən illərin təcrübəsi onların təşəkkül taparaq əhali arasında yüksək nüfuz qazanmasını şərtləndirib. Həmin müddət ərzində bələdiyyələri təmsil edən qurumlar ictimaiyyətdə yerli özünüidarəetmə orqanları barədə müəyyən təəssürat yarada biliblər. Onların bir çoxu isə istər dünya, istərsə də yerli təcrübədən yararlanaraq işini günün tələbləri səviyyəsində qurmağı bacarıb. Bu cür yerli özünü idarəetmə qurumlarından biri də M.Ə.Rəsulzadə bələdiyyəsidir. Bəs, «Rəsulzadə bələdiyyəsinin uğurları» deyəndə ilk növbədə hansı amillər önə çəkilməli, hansı məqamlara toxunulmalıdır?

Bələdiyyələrin yarandığı yaxın tarixə qısa ekskurs etsək görərik ki, M.Ə.Rəsulzadə bələdiyyəsi formalaşdığı gündən ciddi şəkildə üzərinə düşən işlərin öhdəsindən gəlməyə başlamışdır. M.Ə.Rəsulzadə bələdiyyəsi formalaşdığı gündən ciddi şəkildə üzərinə düşən işlərin öhdəsindən gəlməyə başlamış və 2000-ci ilin fevral ayından Ədliyyə Nazirliyində dövlət qeydiyyatına alınmışdır. Yerli özünüidarəetmə orqanı olaraq, ilk gündən yerli problemlərin həllinə ciddi nüfuz etmiş, bunun üçün bütün texniki-təşkilati və hüquqi məsələlərin həllinə çalışmışdır. Bu cür fəaliyyət nəticəsində artıq M.Ə.Rəsulzadə bələdiyyəsi ərazi hüdudları daxilində çevik şəkildə qarşıya çıxan bütün sosial problemləri öz səlahiyyətləri çərçivəsində həll etmək imkanı olan yerli orqana çevrilmişdir. M.Ə.Rəsulzadə bələdiyyəsi fəaliyyəti dövründə Milli Məclisin, Nazirlər Kabinetinin, yerli icra hakimiyyətlərinin müvafiq strukturları ilə sıx təmasda olmaqla yanaşı, yerlərdə bələdiyyə orqanlarının hüquqlarının genişləndirilməsi üzrə ölkə qanunvericiliyinin daha geniş şəkildə tətbiqinə çalışır.

Qeyd etmək yerinə düşər ki, fəaliyyəti dövründə M.Ə.Rəsulzadə bələdiyyəsinin təmsilçiləri dəfələrlə Azərbaycanın bələdiyyə institutunu bir sıra Avropa ölkələrində layiqincə təmsil etmişlər.

M.Ə.Rəsulzadə bələdiyyəsi Bakı şəhərinin şimal hissəsində, Binəqədi rayonunun M.Ə.Rəsulzadə qəsəbəsinin inzibati ərazisində yerləşir. Bələdiyyə ərazisinin bir hissəsi qəsəbənin yaşayış massivini, digər hissəsi isə əvvəllər bataqlıqlaşmış Baksol və Böyükşor gölüdür ki, sonradan bələdiyyə tərəfindən bu ərazilər abadlaşdırılaraq istifadəyə yararlı hala gətirilmişdir. Bu gün M.Ə.Rəsulzadə qəsəbəsinin əhalisi 100 min nəfərə yaxındır. Azərbaycan Respublikasının «Bələdiyyələrin əraziləri və torpaqları haqqında» (7 dekabr 1999-cu il) Qanununa müvafiq olaraq, Bakı şəhər İcra Hakimiyyəti başçısı 812 saylı, 31.08.2001-ci il tarixli sərəncamla M.Ə.Rəsulzadə qəsəbəsinin inzibati ərazisinə aid olan 501,26 ha torpaq sahəsini bələdiyyənin mülkiyyətinə vermişdir.

M.Ə.Rəsulzadə bələdiyyəsi özünün istehsal və mədəni sahələrdəki nailiyyətləri ilə tanınan Binəqədi rayonu ərazisində yerləşir. Bələdiyyənin inzibati ərazisində sənaye-istehsalat sahələri, müxtəlif elm, təhsil, mədəniyyət, səhiyyə ocaqları, ictimai-iaşə və ticarət obyektləri, istirahət guşələri yerləşir.

M.Ə.Rəsulzadə bələdiyyəsi fəaliyyətə başladığı gündən rayon ərazisində irimiqyaslı abadlıq işləri həyata keçirmişdir. Təkcə onu qeyd etmək kifayətdir ki, 2002-ci il üçün yerli büdcə daxilolmalarına görə (dövlət büdcəsindən verilən subsidiya və dotasiya istisna edilməklə) Rəsulzadə bələdiyyəsi respublikada birinci pillədə olmuşdur. Qeyd edilməlidir ki, bələdiyyə üzvlərinin böyük əksəriyyətinin ali təhsilli və təcrübəli mütəxəssis olmaları yerli idarəetmənin təşkilində mühüm rol oynamış və elə ilk illərdən başlayaraq, öz bəhrəsini vermişdir. İlk fəaliyyət dövründə bələdiyyədə qanunvericiliyə uyğun olaraq, üç daimi komissiyya yaradılmışdır:

- Yerli büdcə və iqtisadi məsələlər daimi komissiyası
- Sosial-ekoloji məsələlər daimi komissiyası
- Hüquq məsələləri daimi komissiyası

Qeyd etmək lazımdır ki, qanunvericilikdə bələdiyyələrin səlahiyyətlərinə aid edilmiş bütün məsələlər ilkin olaraq komissiyalarda müzakirə olunur, sonradan isə qurumun ümumi yığıncağı müvafiq qərar qəbul edir. Hər bir vətəndaşın bələdiyyə orqanına müraciət etmək hüququnu təmin etmək məqsədilə daimi komissiyalarda vətəndaşların qəbulu, onların probleminin ətraflı təhlili proseduru həyata keçirilir. Rəsulzadə bələdiyyəsində daimi komissiyalar yerli əhəmiyyətli məsələləri müzakirə etməklə, bələdiyyənin iclasına təsdiq edilmək üçün proqramlar, qərar layihələri və arayışlar hazırlamaqla öz fəaliyyətlərinə görə bələdiyyə qarşısında məsuliyyət daşıyırlar. Yerli idarəetmənin demokratik fəaliyyətində əhalinin iştirakının təmin olunması məqsədi ilə 2000-ci ilin ikinci yarısından bələdiyyənin təşəbbüsü nəticəsində məhəllə komitələri yaradılmış, onların köməyi ilə inzibati ərazinin həlli vacib olan sosial problemləri müəyyənləşdirilmişdir.

İlk əvvəl bələdiyyənin müvafiq strukturu tərəfindən qəsəbə ərazisində fiziki şəxslərin mülkiyyətində və istifadəsində olan torpaq sahələrinin, bina və tikililərin qeydiyyatı təşkil edilmiş və üç ay ərzində bələdiyyənin vergi xidməti orqanı tərəfindən 6340 nəfər fiziki şəxsin xüsusi mülkiyyətində və istifadəsində olan yerli vergi obyekti qeydiyyata alınmışdır. Vergi qanunvericiliyinə uyğun olaraq aparılan qeydiyyat məlumatları fiziki şəxslərin uçot-hesab kitabına işlənərək vergi məbləğlərinin hesablanması həyata keçirilib. Bələdiyyələrin tam formalaşmamasını nəzərə alaraq, 2000-ci ilin



birinci yarımilində fiziki şəxslərin torpaq və əmlak vergilərini dövlət vergi xidməti orqanları təmin etmiş və Azərbaycan Respublikası Vergilər Nazirliyinin 03.08.2000-ci il tarixli 13/01-3191 saylı məktubuna əsasən toplanmış vəsaitlər müvafiq yerli büdcələrə, o cümlədən Rəsulzadə bələdiyyəsinin büdcəsinə köçürülmüşdür. 2000-ci ilin ikinci yarısında artıq bələdiyyənin vergi xidməti orqanı tam şəkildə fəaliyyətə başlayaraq qeydiyyat məlumatlarına əsasən yerli vergi və ödənişlərin toplanılması ilə məşğul olmuşdur.

Yerli vergilərlə yanaşı bələdiyyə mülkiyyətinə verilmiş torpaq sahələrinin özgəninkiləşdirilməsi, qanunvericiliyə uyğun fiziki və hüquqi şəxslərin icarəsinə verilməsi, bələdiyyənin inzibati ərazisi daxilində reklam yayımına görə ödənişlərin toplanması sahəsində də hazırlıq işləri görülərək başa çatdırılmış və yerli büdcəyə vəsaitlərin toplanılması da həyata keçirilmişdir. Aparılan məqsədyönlü işlərin nəticəsi olaraq, 2000-ci ilin yekununa görə, Rəsulzadə bələdiyyə büdcəsinə 145050,7 min manat vəsait daxil olmuşdur, o cümlədən:

| Sıra №-si | Gəlirlərin adı | 2000-ci ilə proqnoz | 2000-ci ildə daxil olmuşdur (mln. manatla) | İcra edilib %-lə |
|---|---|---|---|---|
| 1. | Fiziki şəxslərdən torpaq vergisi | 35000,0 | 37423,6 | 106,0 |
| 2. | Fiziki şəxslərdən əmlak vergisi | 10000,0 | 11833,0 | 118,0 |
| 3. | Küçə reklamı yayımı üçün ödəniş | 6000,0 | 6095,5 | 101,5 |
| 4. | Bələdiyyə mülkiyyətində olan torpaqların özgəninkiləşdirilməsindən daxil olan ödənişlər | 23000,0 | 20950,6 | 91,0 |
| 5. | Bələdiyyə mülkiyyətində olan torpaqların icarəyə verilməsindən daxil olan ödənişlər | 2000,0 | 1891,3 | 94,6 |
| 6. | Avtomobil dayanacağı üçün rüsum | - | 100,0 | - |
| 7. | Fiziki şəxslərin maliyyə yardımı | 2000,0 | 2000,0 | 100,0 |
| 8. | Dövlət büdcəsindən subsidiya | 70000,0 | 64756,7 | 92,0 |
| | Cəmi gəlirlər | 148000,0 | 145050,7 | 98,9 |

Bələdiyyə qeyd edilənlərlə yanaşı sakinlərin sosial-məişət problemlərinin həllində yaxından iştirak etmiş və bir sıra tədbirlər həyata keçirmişdir. Belə ki, məhəllə komitəsi vasitəsilə qaz kəmərinin bərpası üçün 810,0 min manat, C.Cabbarlı küçəsinə elektrik təchizatı üçün 200,0 min

manat, müharibə veteranlarının tədbirləri üçün 500,0 min manat, ailə başçısını itirmiş kimsəsiz ailədə dəfn mərasiminin təşkili üçün 200,0 min manat vəsait sərf etmişdir. Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda döyüşlərdə Binəqədi batalyonunun tərkibində eyni gündə həlak olmuş 19 şəhid ailəsinə il mərasimlərinin keçirilməsinə kömək məqsədi ilə cəmi 1900,0 min manat vəsait ayrılmaqla sərf edilmişdir.

Yerli büdcənin gəlirlər hissəsində aparılan müvafiq dəyişiklikləri və əhalinin yerli problemlərinin araşdırılmasının yekunlarını nəzərə alaraq, bələdiyyənin 2001-ci ilə yerli büdcəsinin tərtibi reallaşdırıldı. Rəsulzadə bələdiyyəsinin idarəetmə strukturu nizamnamə ilə müəyyən edilmiş qaydada qarşıya qoyulan məqsədlərə nail olunması baxımından 21.11.2000-ci il tarixli iclasın protokoluna əsasən 41 ştat vahidi və aylıq əmək haqqı fondu 8850,0 min manat olmaqla təsdiq edildi. İcra aparatına işlər idarəsi, hüquq və kadrlar idarəsi, maliyyə-vergilər idarəsi və iqtisadiyyat şöbəsi daxil edilməklə hər bir struktur bölmənin əsasnaməsi işlənib hazırlandı.

Qeyd edək ki, bələdiyyə fəaliyyətinin birinci ildönümü münasibəti ilə Rəsulzadə bələdiyyəsi əhalinin və rayon icra hakimiyyətinin rəhbərliyinin iştirakı ilə 2000-ci ilin dekabrında geniş hesabat yığıncağı keçirməklə il ərzində görülən işlər və yeni ildə həyata keçirilməsi nəzərdə tutulan tədbirlər haqda seçicilərinə ətraflı məlumat verdi. Yığıncaqda bütün ərazi üzrə məhəllə komitələrinin rəy və təklifləri dinlənildi və bələdiyyənin fəaliyyəti yüksək qiymətləndirildi. Bütün rəy və təkliflər nəzərə alınmaqla bələdiyyənin 2001-ci ilə büdcə layihəsi bələdiyyənin iclasına təqdim edildi. 2000-ci il 25 dekabrda keçirilən bələdiyyə iclasında geniş müzakirədən sonra 2001-ci ilə yerli büdcə mədaxil və məxarici 710,0 mln. manat olmaqla təsdiq edildi.

Yeni büdcə ilində bələdiyyənin icra orqanının saxlanılması üçün 336,0 mln. manat, o cümlədən 150,0 mln. manat əməyin ödənişi fonduna vəsait nəzərdə tutulmuşdur. Bundan başqa iqtisadi və ekoloji proqramlara əsasən uzun illər kanalizasiya xətti olmayan Aydınbəyov və İ.Hacıyev küçələrini əhatə edən yaşayış massivinə yeni kanalizasiya xəttinin çəkilişini, abadlaşdırılmasına və digər sosial təminat xərclərinə 374,0 mln.



manat vəsait proqnozlaşdırılmışdır. Yerli büdcənin gəlirlər hissəsinin təminatı üçün qanunvericiliyə uyğun 2001-ci ilin I rübündə ərazidə olan fiziki və hüquqi şəxslərin mülkiyyətində və istifadəsindəki torpaq sahələrinin, bina və tikililərin qeydiyyatı aparıldı. Bu məqsədlə inzibati ərazinin 8 vergi sahəsinə bölünərək vergi müfəttişlərinə təhkim edilməsi əmrlə rəsmiləşdirildi. Hər bir vergi ödəyicisinə, icarə müqaviləsi ilə və digər ödənişlər həyata keçirən fiziki və hüquqi şəxslərə identifikasiya nömrəsi tətbiq edilərək qeydiyyat və hesabat işləri kompyuterləşdirildi. Yerli idarəetmə orqanlarına dair qanunvericiliyə uyğun olaraq, 2001-ci ilin büdcəsi üzrə yerli daxilolmalar hesabına örtülməyən 490,0 mln. manat büdcə kəsirinin dövlət büdcəsindən alınacaq maliyyə yardımları hesabına maliyyələşdirilməsi proqnozlaşdırıldı. Dövlət büdcəsindən alınacaq vəsaitlər hesabına maliyyələşdirilməsi nəzərdə tutulan tədbirlər yerli büdcənin təsdiqi zamanı ayrıca bəndlə göstərilməklə, bələdiyyə iclasının qərarına cədvəl şəklində əlavə edildi.

Fikrimizcə, Rəsulzadə bələdiyyəsi üçün 2001-ci il yerli büdcənin icrası kimi daha uğurlu hesab edilə bilər. Bələdiyyə mülkiyyətinə verilmiş torpaqlar zibilliklərdən təmizləndikdən sonra əlavə torpaq işləri görülməklə mənzil şəraiti ağır olan sakinlərin mülkiyyətinə satılmışdır. Bu isə son nəticədə ərazidə çirkab suların qurudulmasına və bələdiyyə torpaqlarından səmərəli istifadə etməklə yerli büdcə gəlirlərinin xeyli artırılmasına gətirib çıxarmışdır. Təkcə onu qeyd etmək olar ki, görülən tədbirlər nəticəsində 2001-ci ildə bələdiyyə torpaqlarının özgəninkiləşdirilməsindən və icarəyə verilməsindən daxilolmalar 135,0 mln. manat proqnoza qarşı 670,6 mln. manat təşkil etmişdir. Ümumiyyətlə, Rəsulzadə bələdiyyəsi üzrə 2001-ci il yerli büdcənin gəlirlər hissəsi aşağıdakı kimi icra edilmişdir:

| Sıra №-si | Gəlirlərin adı | 2001-ci il yerli büdcə üzrə | | İcra edilib %-lə |
|---|---|---|---|---|
| | | proqnoz | icra edilib | |
| 1. | Fiziki şəxslərdən torpaq vergisi | 38000,0 | 38353,3 | 100% |
| 2. | Fiziki şəxslərdən əmlak vergisi | 25000,0 | 99750,2 | 100-dən çox |
| 3. | Bələdiyyə mülkiyyətində olan hüquqi şəxslərin mənfəət vergisi | 6000,0 | - | - |
| 4. | Küçə reklamının yayımına görə ödəniş | 12000,0 | 8103,0 | 67,5 |
| 5. | Bələdiyyə əmlakının özgəninkiləşdirilməsindən ödəniş | 85000,0 | 670629,7 | 100-dən çox |
| 6. | Bələdiyyə mülkiyyətinin icarəyə verilməsinə görə ödəniş | 50000,0 | 45284,1 | 92,4 |
| 7. | Avtomobil dayanacaqlarına görə ödəniş | 2000,0 | - | - |
| 8. | Bələdiyyənin fəaliyyətindən əldə Edilən digər gəlirlər, ianələr, maliyyə yardımları | 2000,0 | 2644,0 | 132,2 |
| 9. | Dövlət büdcəsindən ayrılan maliyyə yardımları | 490000,0 | 14500,0 | 3,0 |
| | Cəmi gəlirlər: | 710000,0 | 879264,3 | 123,8 |

Cədvəldən göründüyü kimi, fiziki şəxslərdən əmlak vergisinin böyük fərqlə yerinə yetirilməsi əsasən son illər çoxmərtəbəli xüsusi mülklərin tikilməsi və binaların inventar dəyərinin müəyyən edilməsində Texniki İnventarlaşdırma və Mülkiyyət Hüquqlarının Qeydiyyatı İdarəsinin mütəxəssislərinin bu sahəyə daha məsuliyyətlə yanaşmalarının böyük rolu olmuşdur.

Mədaxil hissənin icrası bir daha təsdiq etdi ki, bələdiyyənin yararsız torpaqlarının abadlaşdırılaraq satılması və icarəyə verilməsinə dair proqram tədbirləri özünü doğrultmuş, nəticədə proqnozdan artıq 535,6



mln. manat əlavə vəsaitin yerli büdcəyə toplanmasına nail olunmuşdur. Mədaxil hissənin plandan artıq yerinə yetirilməsi və büdcə ili ərzində proqnozlaşdırılmayan problemlərin meydana çıxması bələdiyyə iclasının qərarı ilə dürüstləşdirmə aparılmasını zəruri etmişdir. 2001-ci ilin yekununa görə, yerli büdcənin məxaric hissəsi aşağıdakı kimi olmuşdur:

| Sıra №-si | Xərclərin adı | 2001-ci il yerli büdcə üzrə | | |
|---|---|---|---|---|
| | | Təsdiq edilib | İcra edilib | İcra edilib %-lə |
| 1. | Bələdiyyə orqanının saxlanılması xərcləri - cəmi | 362000,0 | 352314,1 | 97,3 |
| | O cümlədən | | | |
| | - əməyin ödənişi fondu | 115000,0 | 115527,1 | 100,5 |
| | - əmək haqqına üstəlik | 32000,0 | 22451,0 | 70.2 |
| | - malların alınması və xidmətlərin haqqının ödənilməsi | 215000.0 | 214336,4 | 99,7 |
| | o cümlədən | | | |
| | İnventar və avadanlıq alınması | 88000,0 | 88366,3 | 100,4 |
| | İnzibati binanın təmiri | 58000,0 | 58343,9 | 100,6 |
| 2. | Təhsil xərcləri | 108000,0 | 107908,8 | 99,9 |
| 3. | Sosial təminat və bədən tərbiyəsi | 20000,0 | 20270,0 | 101,3 |
| 4. | Mənzil-kommunal təsərrüfatı xərcləri | 360000,0 | 359483,6 | 99,9 |
| 5. | Ekologiya və təbiətin mühafizəsi tədbirləri | 25000,0 | 22245,2 | 89,0 |
| 6. | İqtisadi fəaliyyətlə bağlı digər tədbirlər | 300000,0 | 295027,2 | 98,4 |
| | Xərclərin cəmi | 1175000,0 | 1157249,3 | 98,5 |

Cədvəldən göründüyü kimi, bələdiyyə orqanının saxlanılmasına çəkilən xərclər yerli büdcə xərclərinin cəmi 30,5 faizini təşkil etmişdir ki, bu da respublika üzrə orta göstəricidən 9,8 faiz azdır. Bələdiyyə büdcəsinin icrasında əsas diqqət əhalinin problemlərinin həllinə, inzibati ərazinin abadlaşdırılması və sanitar tarazlığın bərpasına yönəldilmişdir. Büdcənin məxaric hissəsində iqtisadi fəaliyyətlə bağlı tədbirlərin maliyyələşdirilməsi yerli daxilolmalar və dövlət büdcəsindən maliyyə yardımları hesabına həyata keçirilməsi mümkün olmadığından qısamüddətli bank kreditlərindən istifadə olunmuşdur.

Ötən dövr ərzində bələdiyyə qəsəbədə təhsil alan əlaçı şagirdlərə 7300,0 AZM, bununla yanaşı ali məktəbin ödənişli fakültəsinə daxil olan tələbənin təhsil haqqını ödəmişdir. Bu müddətdə bələdiyyə tənha və ahıl qocaları, Qarabağ müharibəsi əlillərini, Xocalı köçkünlərini unutmamış, onlara 20 mln. manat vəsait ödəmişdir. Yeni tədris ili ərəfəsində isə ərazidə

yerləşən 143 saylı məktəbin təmir işlərinə 87 mln. manat xərc çəkilmişdir.

2002-ci ilə diqqət yetirsək görərik ki, Rəsulzadə bələdiyyəsi üzrə yerli büdcəsi qanunvericiliyə uyğun olaraq bələdiyyənin 21.12.01-ci il tarixli iclasının 117 saylı qərarı ilə mədaxil və məxaric üzrə 1883,0 milyon manat həcmində təsdiq olunmuşdur. Mədaxil üzrə yerli vergi və ödənişlərin məbləği 811,0 milyon manat olmaqla, yerli büdcənin məxaric hissəsinin mədaxildən artıq olan 1072,0 milyon manat hissəsi yuxarı büdcədən maliyyə yardımı hesabına maliyyələşdirilməsi proqnozlaşdırılmışdır. Yerli vergi və ödənişlərin proqnozu hesabat ilinin nəticələri, inzibati ərazinin iqtisadi inkişafı və daimi komissiyanın rəyləri əsasında müəyyənləşdirilmişdir.

Bakı şəhər bələdiyyələrinin bir çoxunda olduğu kimi, Rəsulzadə bələdiyyəsinin tərtib etdiyi sosial proqramlar inzibati ərazinin sanitar vəziyyətinin və ətraf mühitin mühafizəsi, yaşıllıqların salınması, ərazidə məskunlaşmış qaçqın, məcburi köçkün, şəhid və imkansız ailələrə yardımların göstərilməsi və digər sosial-mədəni tədbirləri əhatə etmişdir. Bu baxımdan 2002-ci ilin yerli büdcəsində ərazinin abadlaşdırılması, park və xiyabanların salınması və yeni istehsal sahələrinin yaradılması məqsədilə 1000,0 milyon manatdan artıq vəsait nəzərdə tutulmuşdur. Qarşıya qoyulan tədbirlərin həyata keçirilməsinə nail olunması məqsədilə yerli büdcənin gəlirlər hissəsində dövlət büdcəsindən 1072,0 milyon manat maliyyə yardımı proqnozlaşdırılmışdır. 2002-ci büdcə ilində bələdiyyə büdcəsindən ayrı-ayrı hallarda yaranan maliyyə gərginlikləri bələdiyyə üzvlərinin səyi ilə qəbul olunan operativ qərarların icrası və bələdiyyə qulluqçularının fəal əməyi nəticəsində aradan qaldırılaraq yüksək nəticələrə nail olunmuşdur.

Hesabat ili ərzində bələdiyyə torpaqlarından daha səmərəli istifadə edilməsi məqsədilə bələdiyyə qərarlarına müvafiq olaraq xeyli işlər, o cümlədən yararlı torpaq sahələrinin fiziki və hüquqi şəxslərin icarəsi və istifadəsinə verilməsi, Böyük Şor gölünün Binəqədi şossesinin kənarında yararsız və su basmış sahələrinin qurudularaq istifadə edilməsi təmin edilmişdir. Qeyd edilən səmərəli tədbirlərin nəticəsidir ki, Rəsulzadə bələdiyyəsi 2002-ci ilin yekununa görə, Azərbaycan Respublikasında yerli büdcələr üzrə rekord göstəriciyə nail olmuşdur. Rəsulzadə bələdiyyəsinin 2002-ci ildə topladığı yerli vergi və ödənişlər ümumilikdə Bakı şəhər (49 bələdiyyənin) icmal yerli büdcə daxilolmalarının (dövlət büdcəsindən maliyyə yardımı istisna olmaqla) 19,8%-ni təşkil etmişdir (1365,4 milyon manat / 6909,9 milyon manat). Belə bir nəticənin əldə olunmasına bələdiyyə tərəfindən qanunsuz zəbt olunmuş və uzun müddət vətəndaşlar tərəfindən istifadə olunan torpaqların,



## 2003-cü ilin yeknununa görə yerli büdcələrin gəlirlər üzrə icrasının nəticələri




| | Respublika | Bakı şəhəri | Binəqədi r. | Rəsulzadə bələd. |
|---|---|---|---|---|
| F.ş. Torpaq vergisi | 36.7 | 11,5 | 3,0 | 2,3 |
| F.ş. Əmlak vergisi | 8.5 | 19,6 | 9,0 | 8.1 |
| Bəl.əmlakının Özəlləşməsi və icarəyə verilməsi | 32.9 | 38.5 | 83.7 | 87.0 |
| Bəl.mülk.hüq.şəxs.mənfəət v. | 0.0 | 0.1 | | - |
| Yerli əhəm. tik.mat.mədən v. | 0.4 | 0.1 | | - |
| Reklam ödənişləri | 0.2 | 0.2 | 0.5 | 0.2 |
| Döv.büd.maliyyə yardımı | 8.7 | 4.8 | 1.5 | 1,0 |
| Digər daxilolmalar | 12.6 | 25.2 | 2.3 | 1,4 |

## ƏHALİNİN BİR NƏFƏRİNƏ DÜŞƏN BÜDCƏ XƏRCLƏRİNİN MÜQAYİSƏLİ CƏDVƏLİ

**2003-CÜ İLİN YEKUNLARINA GÖRƏ** (min manat)

| | Yerli büdcə üzrə | | Dövlət büdcəsi üzrə proqnoz göstəricilər | Qeyd |
|---|---|---|---|---|
| | Proqnoz göstəricisi | İcra edilib | | |
| Respublika üzrə | 14,5 | 7,9 | 786,0 | |
| Bakı şəhəri üzrə | 12,3 | 5,7 | 241,5 | |
| Binəqədi rayonu üzrə | - | - | 117,2 | |
| Rəsulzadə bələdiyyəsi üzrə | 34,0 | 27,5 | - | |
| Gəncə şəhəri üzrə | 7,7 | 3,8 | 205,7 | |
| Sumqayıt şəhəri üzrə | 5,9 | 5,2 | 206,5 | |

## Dövlət və yerli büdcələr üzrə 2003-cü ilin yekununa görə adambaşına düşən gəlirlər haqda məlumat




## Bakı şəhər bələdiyyələri üzrə 2003-cü ilin yekununa görə icmal yerli büdcənin icrasında Binəqədi rayonunun xüsusi çəkisi

İcmal yerli büdcə üzrə

Respublika üzrə - 100,0%

O cümlədən
Bakı şəhəri üzrə cəmi - 20,0%

O cümlədən
Binəqədi rayonu üzrə cəmi - 36,2%

O cümlədən
Rəsulzadə bələdiyyəsi -34,8%





## Respublika və Bakı şəhər bələdiyyələri üzrə ilin yekununa görə icmal yerli büdcənin icrasında M.Ə.Rəsulzadə bələdiyyəsinin xüsusi çəkisi

| İllər üzrə | 2002 | 2003 | 2004 | 2005 | 2006 |
|---|---|---|---|---|---|
| Respublika üzrə bələdiyyələrin sayı | 100% | 100% | 100% | 100% | 100% |
| | 2623 | 2653 | 2660 | 2728 | 2736 |
| Bakı şəhəri üzrə bələdiyyələrin sayı | 16,1% | 20,0% | 27,8% | 34,8% | 26,0% |
| | 48 | 48 | 49 | 50 | 51 |
| M.Ə.Rəsulzadə bələdiyyəsi | 2,3% | 2,5% | 4,8% | 12,3% | 2,2% |

*Mənbə: DSK-nın illik hesabatları əsasında hazırlanıb*

## Respublika və Bakı şəhər bələdiyyələri üzrə ilin yekununa görə icmal yerli büdcənin istifadəsində M.Ə.Rəsulzadə bələdiyyəsinin xüsusi çəkisi

| İllər üzrə | 2002 | 2003 | 2004 | 2005 | 2006 |
|---|---|---|---|---|---|
| Respublika üzrə bələdiyyələrin sayı | 100% | 100% | 100% | 100% | 100% |
| | 2623 | 2653 | 2660 | 2728 | 2736 |
| Bakı şəhəri üzrə bələdiyyələrin sayı | 15,3% | 20,2% | 27,9% | 37,3% | 26,1% |
| | 48 | 48 | 49 | 50 | 51 |
| M.Ə.Rəsulzadə bələdiyyəsi | 2,2% | 2,4% | 4,9% | 12,0% | 2,7% |

*Mənbə: DSK-nın illik hesabatları əsasında hazırlanıb*

## Respublika və Bakı şəhər bələdiyyələri üzrə ilin yekununa görə icmal yerli büdcədə ətraf mühitin mühafizəsi və ekoloji tədbirlər sahəsində M.Ə.Rəsulzadə bələdiyyəsinin xüsusi çəkisi

| İllər üzrə | 2002 | 2003 | 2004 | 2005 | 2006 |
|---|---|---|---|---|---|
| Respublika üzrə bələdiyyələrin sayı | 100% | 100% | 100% | 100% | 100% |
| | 2623 | 2653 | 2660 | 2728 | 2736 |
| Bakı şəhəri üzrə bələdiyyələrin sayı | 63,4% | 58,4% | 68,4% | 75,5% | 59,4% |
| | 48 | 48 | 49 | 50 | 51 |
| M.Ə.Rəsulzadə bələdiyyəsi | 21,6% | 52,7% | 48,2% | 37,6% | 19,6% |

*Mənbə: DSK-nın illik hesabatları əsasında hazırlanıb*

## M.Ə.Rəsulzadə bələdiyyəsi üzrə yerli büdcənin xərclərinin tərkibi




2000 2001 2002 2003 2004 2005 2006

| Şərti işarə | | XƏRCLƏR | 2000 | 2001 | 2002 | 2003 | 2004 | 2005 | 2006 |
|---|---|---|---|---|---|---|---|---|---|
| | 1 | Yerli idarəetmə orqanlarının saxlanılması | 94,2 | 30,4 | 19,4 | 25,0 | 9,0 | 23,5 | 33,0 |
| | | (a) Əməyin ödənişi | 23,9 | 10,0 | 11,0 | 8,5 | 5,1 | 12,8 | 18,3 |
| | | (b) Əmək haqqına əlavə | 8,2 | 2,0 | 2,0 | 2,5 | 1,4 | 2,2 | 7,7 |
| | | (v) Digər tədbirlər | 62,1 | 18,4 | 6,4 | 14,0 | 2,6 | 8,5 | 7,1 |
| | 2 | Təhsil | - | 9,3 | 1,6 | - | - | 0,8 | 0,5 |
| | 3 | Sosial müdafiə və sosial təminat | 5,8 | 1,8 | 2,9 | 1,6 | 1,3 | 4,6 | 7,0 |
| | 4 | Səhiyyə və bədən tərbiyyəsi | - | - | 0,8 | - | - | 16,8 | - |
| | 5 | Mənzil kommunal | - | 31,1 | - | 10,1 | 4,2 | 7,5 | 4,8 |
| | 6 | Ətraf mühitin mühafizəsi | - | 1,9 | 23,2 | 63,3 | 43,8 | 12,0 | 22,5 |
| | 7 | İqtisadi fəaliyyət və abadlaşdırma | - | 25,5 | 52,1 | - | 41,6 | 34,8 | 32,1 |

# *M.Ə.Rəsulzadə bələdiyyəsi üzrə yerli büdcənin xərclərinin tərkibi*




| Şərti işarə | | G Ə L İ R L Ə R | 2000 | 2001 | 2002 | 2003 | 2004 | 2005 | 2006 |
|---|---|---|---|---|---|---|---|---|---|
| | 1 | Fiziki şəxslərdən torpaq vergisi | 25,8 | 4,4 | 3,3 | 2,3 | 1,2 | 2,8 | 3,4 |
| | 2 | Fiziki şəxslərdən əmlak vergisi | 8,1 | 11,3 | 7,3 | 8,1 | 2,9 | 4,4 | 4,1 |
| | 3 | Reklam yayımı üçün ödəniş | 4,2 | - | - | - | 0,1 | 0,3 | 0,3 |
| | 4 | Bələdiyyə əmlakının icarəyə verilməsi | - | 5,2 | 2,0 | 1,3 | 1,4 | 1,5 | 1,8 |
| | 5 | Bələdiyyə əmlakının özəlləşdirilməsi | 14,5 | 76,3 | 80,3 | 87,0 | 90,4 | 83,8 | 81,5 |
| | 6 | Digər daxilolmalar | 2,7 | 1,2 | 1,0 | 0,3 | 3,3 | 6,2 | 8,2 |
| | 7 | Dövlət büdcəsindən yardım | 44,7 | 1,6 | 6,1 | 1,0 | 0,7 | 1,0 | 0,7 |







M.Ə.Rəsulzadə bələdiyyəsinin inzibati binasının foyesi







**M.Ə.Rəsulzadə bələdiyyəsinin quruculuq işlərindən bəzi məqamlar**








Sağlamlıq mərkəzi
21.05.2005



Uşaq müalicə mərkəzinin açılış mərasimi
01.06.2005.



Uşaq müalicə sağlamlıq mərkəzinin
açılış mərasimi 01.06.2005.

**M.Ə.Rəsulzadə bələdiyyəsi "Hərəyə bir ağac əkək" kampaniyasına qoşulanlar sırasındadır**



M.Ə.Rəsulzadə qəs.
Binəqədi şossesinin sol tərəfi
22.03.2007





M.Ə.Rəsulzadə qəs.
H.Əliyev adına park
12.03.2007.




M.Ə.Rəsulzadə qəs.
Binəqədi şossesinin sol tərəfi.
28.03.2007.

**M.Ə.Rəsulzadə bələdiyyəsinin Türkiyənin Tire və Çavuşbaşı bələdiyyə üzvləri ilə görüşü**







**M.Ə.Rəsulzadə bələdiyyəsinin ərazidə apardığı təmir-tikinti işlərindən bəzi məqamlar**







Binəqədi şossesi
Zəngəzurun arxası 30.06.2006.


Binəqədi şossesi
Zəngəzurun qarşısı 30.06.2006.


M.Ə.Rəsulzadə qəs.
H.Əliyev adına park 12.03.2007.


M.Ə.Rəsulzadə qəs.
Azadlıq 12 04.09.2006.



Biləcəri şossesi 01.08.2006.






M.Ə.Rəsulzadə qəs
H.Əliyev parkı
17.03.2007.



M.Ə.Rəsulzadə qəs.
H.Əliyevadına park.
09.03.2007.


Rəsulzadə qəs.
Z.Qəmbərov küç. 12.07.2006.


M.Ə.Rəsulzadə qəs.
S.Hüseynov küç. 17.02.2007.


Baksol yolu 25.04.2006.


Biləcəri şossesi 01.08.2006.



M.Ə.Rəsulzadə bələdiyyəsinin qəsəbə sakinlərinin istifadəsinə verdiyi Heydər parkından bir görünüş



həmçinin yararsız sahələrin abadlaşdırılaraq özgəninkiləşdirilməsindən daxil olan 1197,5 milyon manat vəsait təsir etmişdir. Ümumiyyətlə, 2002-ci hesabat ilində bələdiyyə büdcəsinin mədaxil hissəsi təsdiq edilmiş 1883,0 milyon manata qarşı 1453,7 milyon manat həcmində yerinə yetirilmişdir.

O cümlədən:

| | Gəlirlərin adı | 2002-ci il yerli büdcə üzrə | | İcra edilib (faizlə) |
|---|---|---|---|---|
| | | Proqnoz | Yerinə yetirilib | |
| 1. | Fiziki şəxslərdən torpaq vergisi | 52000,0 | 48482,7 | 93,2 |
| 2. | Fiziki şəxslərdən əmlak vergisi | 106000,0 | 106248,7 | 100,2 |
| 3. | Küçə reklamının yerləşdirilməsi və yayımına görə ödəniş | 15000,0 | 1297,0 | 8,7 |
| 4. | Bələdiyyə mülkiyyətində olan müəssisələrdən mənfəət vergisi | 60000,0 | | |
| 5. | Bələdiyyə əmlakının icarəyə verilməsindən ödənişlər | 28000,0 | 29063,5 | 103,8 |
| 6. | Bələdiyyə əmlakının özgəninkiləşdi-rilməsindən ödənişlər | 530000,0 | 1168445,8 | 100 -dən çox |
| 7. | Avtomobil dayanacaqlarına görə ödənişlər | 4000,0 | 50,0 | 1,3 |
| 8. | Birdəfəlik ödənişlər, ianələr və digər yardımlar | 16000,0 | 11779,6 | 73,6 |
| Cəmi yerli vergi və ödənişlər | | 811000,0 | 1365367,3 | 168,4 |
| 9. | Dövlət büdcəsindən maliyyə yardımı | 1072000,0 | 88315,0 | 8,2 |
| Gəlirlərin cəmi: | | 1883000,0 | 1453682,3 | 77,2 |

Bununla yanaşı, bələdiyyənin inzibati ərazisi daxilində 2002-ci ildə 122 fiziki və 22 hüquqi şəxslə torpaq sahələrinin icarəyə verilməsinə dair müqavilə bağlanılmaqla bələdiyyə əmlakının icarəyə verilməsinə görə 29 063,5 min manat ödəniş daxil olmuşdur. Bələdiyyə mülkiyyətində olan torpaqlarda, binalarda və digər obyektlərdə küçə (divar) reklamının yerləşdirilməsi və yayımı üzrə isə 26 reklam müqaviləsi bağlanılaraq, il ərzində 1297,0 min manat vəsait toplanılmışdır. Bələdiyyə büdcəsinin iqtisadi inkişaf və ekoloji proqramlarına uyğun olaraq məxaric hissədə təsdiq edilmiş 960,0 mln. manat plan büdcə ili ərzində bələdiyyə üzvlərinin və yerli sakinlərin təklif və rəyləri əsasında dürüstləşdirilərək 1160,0 mln. manat olmuşdur. Dürüstləşmə Binəqədi şossesinin hər iki tərəfini tutmuş antisanitariya mənbəyi olan zibillik

və gölməçələrin qurudulması məqsədi ilə istifadəsiz qalan mənzil-kommunal xərclərinin hesabına aparılmışdır. Yerli büdcənin ekologiya və təbiətin mühafizəsi bölməsi üzrə xərclər dürüstləşdirilmiş 400,0 mln. manata qarşı qeyd edilən məqsədlərə 318,2 mln. manat həcmində icra edilmişdir. Bələdiyyənin inzibati ərazisinin abadlaşdırılması məqsədi ilə iqtisadi fəaliyyətlə bağlı tədbirlərə nəzərdə tutulan 760,0 mln. manat plana qarşı 713,6 mln. manat icra olunmuşdur. Sərf edilən vəsaitlər bələdiyyənin inzibati ərazisi daxilində parkların abadlaşdırılmasına, yeni yaşıllıq zolaqlarının salınmasına və Böyük Şor gölünə birləşən gölməçələrin qurudulmasına yönəldilmişdir.

Bu sahədə əsas diqqət bələdiyyənin inzibati ərazisi daxilində olan Azadlıq prospektində yerləşən yeni böyük istirahət parkının salınmasına yönəldilmiş və rayon ərazisində ən böyük yaşıllıq massivinin və istirahət zonasının yaradılmasına nail olunmuşdur. İstirahət parkının salınması bütövlükdə Binəqədi rayon sakinlərinin sevincinə səbəb olmaqla, hər gün minlərlə insanın istirahət etməsinə şərait yaratmışdır. Öz gözəlliyi ilə diqqəti çəkən bu istirahət guşəsinin yaradılmasına M.Ə. Rəsulzadə bələdiyyəsinin büdcəsindən 368,8 mln. manat vəsait sərf edilmişdir ki, bu da vətəndaş cəmiyyətinin formalaşması istiqamətində demokratik qurum olan yerli özünüidarə sisteminin 2002-ci ildə öz xalqına verdiyi ən gözəl töhfədir. Qeyd olunanlarla yanaşı, 2002-ci ildə təhsil və səhiyyə xərcləri hesabına müvafiq olaraq hamiliyə götürülmüş 143 saylı orta ümumtəhsil məktəbində 22,3 mln. manat və Binəqədi rayon təcili tibbi yardım stansiyasında isə 11,3 mln. manat həcmində cari təmir və abadlıq işləri həyata keçirilmişdir. Əhalinin sosial müdafiəsi məqsədi ilə Qurban bayramı və digər vaxtlarda aztəminatlı qaçqın, şəhid və əlil ailələrinə yerli büdcənin müvafiq tədbirlər üçün nəzərdə tutulan vəsaitləri hesabına bələdiyyə qərarlarına uyğun olaraq 14,2 mln. manatlıq ərzaq və digər yardımlar göstərilmişdir.

Yerli büdcənin 2002-ci ilin yekununa görə, məxaricinin icrası aşağıdakı kimi olmuşdur:

2003-cü ildəki fəaliyyətimizi izlədikdə görmək olar ki, bələdiyyənin daha da məqsədyönlü fəaliyyətinə nail olunması üçün cari ilin əvvəlindən struktur islahatlar aparılmış, bələdiyyə qulluqçularının əmək haqları artırılmış, icra aparatının saxlanılmasının ümumi xərcləri isə ixtisar edilmişdir. Bunun müqabilində cari ildə bələdiyyə ərazisində abadlıq



işlərinin və ekoloji tədbirlərin daha səmərəli həyata keçirilməsi, əhalinin sosial, mədəni və məişət problemlərinin vaxtında və keyfiyyətli həllinin təmin edilməsi, Rəsulzadə bələdiyyəsinin maddi-texniki bazasının daha da gücləndirilməsi məqsədi ilə xüsusi plan tapşırıqları və inkişaf proq-

| Sıra №-si | Xərclərin adı | 2002-ci ilin yekununa görə | | | İcra edilib %-lə |
|---|---|---|---|---|---|
| | | təsdiq edilib | dəqiqləş-dirilib | icra olunub | |
| 1. | Yerli özünüidarə orqanının saxlanılması xərcləri | 513000,0 | 513000,0 | 265825,0 | 51,8 |
| | O cümlədən:<br>- əməyin ödənişi fondu | 270 000,0 | 270 000,0 | 150535,3 | 55,8 |
| | - əmək haqqına üstəlik | 78000,0 | 78000,0 | 27311,3 | 35,0 |
| | -sair malların alınması və xidmətlərin haqqının ödənilməsi | 165000,0 | 165000,0 | 87978,4 | 53,3 |
| 2. | Təhsil xərcləri | 80000,0 | 60000,0 | 22322,5 | 37,2 |
| 3. | Sosial təminat xərcləri | 50000,0 | 50000,0 | 39304,0 | 78,6 |
| 4. | Səhiyyə xərcləri | | 20000,0 | 11277,5 | 56,4 |
| 5. | Bədən tərbiyəsi və gənclər siyasəti xərcləri | 40 000,0 | 40 000,0 | | |
| 6. | Mənzil-kommunal təsərrüfatı xərcləri | 240 000,0 | 40 000,0 | | |
| 7. | Ekologiya və təbiətin mühafizəsi tədbirləri | 200 000,0 | 400 000,0 | 318177,0 | 79,6 |
| 8. | İqtisadi fəaliyyətlə bağlı digər tədbirlər | 760 000,0 | 760 000,0 | 713575,1 | 93,9 |
| | Xərclərin cəmi | 1883 000,0 | 1883 000,0 | 1370 481,1 | 72,8 |

ramları hazırlanmışdır. Qanunvericiliyə müvafiq olaraq artıq 31 oktyabr 2002-ci ildə 2003-cü büdcə ilinin proqnoz rəqəmləri bələdiyyənin geniş iclasında təsdiq edildi. 2003-cü ilin plan rəqəmlərinin təsdiqi zamanı əsas diqqət inzibati ərazinin abadlaşdırılması və sanitar vəziyyətin qorunmasına yönəldilmişdir. Bu məqsədlə ekologiya və təbiətin mühafizəsi bölməsində proqnoz hesabat ilinə nisbətən 100,0 milyon manat artıq nəzərdə tutulmuşdur. Sakinlərin mənzil kommunal problemlərinin həllinə xüsusi əhəmiyyət verilməklə, bu sahəyə plan ilində 462,0 milyon manat vəsait proqnozlaşdırılmışdır.

2003-cü ilin yanvar ayında vergi və ödənişlərin yığılması və istifadə

edilməsi sahəsində bələdiyyənin fəaliyyətində aşkarlığın tam təmin olunması məqsədilə hesabat ilinin məlumatları bələdiyyə binasında xüsusi lövhədə yerləşdirilmişdir. Onu da qeyd edək ki, yerli büdcənin icrasına dair illik məlumat statistika orqanlarına və Maliyyə Nazirliyinə də təqdim edilmişdir.

2003-cü büdcə ilinə daha əzmlə başlayan Rəsulzadə bələdiyyəsinin kollektivi ilin yekununa görə təqdim etdiyi hesabata görə, ötən illərə nisbətən hərtərəfli inkişafa nail olmuşdur. Hesabat ilində bələdiyyə işinin təşkili ilə yanaşı, inzibati ərazi daxilində infrastrukturun yeniləşdirilməsi, yeni istehsal və xidmət sahələrinin yaradılması ilə iş yerlərinin açılması və ərazinin abadlaşdırılmasına xüsusi önəm verilmişdir.

2003-cü ilin yekununa görə, yerli büdcənin mədaxil hissəsinin icrası aşağıdakı kimi olmuşdur:



| Sıra №-si | Gəlirlərin adı | 2003-cü ilə proqnozu | Yerinə yetirilib | Faizlə |
|---|---|---|---|---|
| 1. | Fiziki şəxslərdən torpaq vergisi | 56 000,0 | 31688,3 | 56,6 |
| 2. | Fiziki şəxslərdən əmlak vergisi | 138 000,0 | 113161,4 | 82,0 |
| 3. | Küçə reklamının yayımı üçün ödəniş | 12 000,0 | 2940,7 | 24,5 |
| 4. | Bələdiyyə mülkiyyətində olan müəssisələrdən mənfəət vergisi | 60 000,0 | - | - |
| 5. | Bələdiyyə əmlakının icarəyə verilməsinə görə ödənişlər | 120 000,0 | 17910,3 | 14,9 |
| 6. | Bələdiyyə əmlakının özgəninkiləşdirilməsindən ödənişlər | 720 000,0 | 1215067,2 | 100-dən çox |
| 7. | Avtomobil dayanacaqları üçün ödəniş | 4 000,0 | - | - |
| 8. | Birdəfəlik ödənişlər, ianə və yardımlar | 10 000,0 | - | - |
| 9. | Digər yerli vergi və ödənişlər | 6 000,0 | 871,1 | 14,5 |
| 10. | Dövlət büdcəsindən subsidiya | 998 000,0 | 14444,0 | 1,5 |
| | Gəlirlərin cəmi | 2 124 000,0 | 1396083,2 | 65,7 |

Cədvəldən göründüyü kimi, daxilolmaların 87,0 faizini bələdiyyə əmlakının (torpaqlarının) özgəninkiləşdirilməsindən ödənişlər təşkil etmişdir ki, bu da Rəsulzadə bələdiyyəsinin hesabat ilində bələdiyyə torpaqlarının idarə olunmasında təşkil etdiyi işin nəticəsində mümkün olmuşdur. Yerli vergilər olan fiziki şəxslərdən əmlak və torpaq vergilərinin toplanılması uğurla həyata keçirilmiş və birlikdə büdcəyə 144,9 milyon manat vəsait toplanılmışdır. Müqayisə üçün qeyd etmək lazımdır ki, bu göstərici Bakı şəhərinin icmal yerli büdcəsinin 4,2 faizini təşkil edir ki, bu iki tədiyyə üzrə Bakı şəhərində hər adambaşına 1,9 min manat toplandığı halda, Rəsulzadə bələdiyyəsi üzrə hər adambaşına 2,8 min manat vəsait toplanılmışdır.

Rəsulzadə bələdiyyəsinin yuxarı büdcədən proqnozlaşdırdığı subsidiya isə cəmi 1,5 faiz icra olunmuşdur.

| Sıra №-si | Xərclərin adı | 2003-cü il | | Xəzinə icrası | %%-lə |
|---|---|---|---|---|---|
| | | proqnoz | dəqiqləşdirilib | | |
| 1. | Yerli özünüidarə orqanının saxlanılması xərcləri | 540 000,0 | 540 000,0 | 349901,2 | 64,8 |
| | o cümlədən: | | | | |
| | -əməyin ödənişi | 200 000,0 | 200 000,0 | 119499,3 | 59,7 |
| | -əmək haqqına üstəlik | 54 000,0 | 54 000,0 | 34128,9 | 63,2 |
| | -malların alınması və xidmətlərin haqqının ödənilməşi | 286 000,0 | 286 000,0 | 196274,0 | 68,6 |
| 2. | Təhsil xərcləri | 120 000,0 | 120 000,0 | - | - |
| 3. | Sosial-təminat xərcləri | 60 000,0 | 60 000,0 | 21727.7 | 36,2 |
| 4. | Bədən tərbiyəsi və gənclər siyasəti tədbirlərinin xərcləri | 42 000,0 | 42 000,0 | - | - |
| 5. | Mənzil-kommunal təsərrüfatı xərcləri | 462 000,0 | 462 000,0 | 141820,1 | 30,7 |
| 6. | Ekologiya və təbiəti mühafizə tədbirləri | 300 000,0 | 900 000,0 | 886655,0 | 98,5 |
| 7. | İqtisadi fəaliyyətlə bağlı digər tədbirlər | 600 000,0 | - | - | - |
| | Xərclərin cəmi : | 2 124000,0 | 2 124000,0 | 1400104,0 | 65,9 |

Yerli büdcənin xərclərini təhlil etdikdə, 2003-cü ilin yekununa görə, ekoloji proqramların həyata keçirilməsi və sakinlərin sosial problemlərinə yönəldilən vəsaitlərin çoxalması müşahidə olunur. Ekoloji sahədə abadlıq işləri əsasən Binəqədi şossesinin hər iki tərəfində çirkab suların və antisanitar vəziyyət yaratmış zibilliklərin ləğv edilməsi istiqamətində yerinə yetirilmişdir. Digər illərdə olduğu kimi, 2003-cü ildə də bələdiyyə aztəminatlı ailələrə yardım proqramını həyata keçirmiş və il ərzində bu işlərə 1023794,1 AZM vəsait ayırmışdır.

2004-cü ilin ötən dövrü ərzində yerli büdcənin mədaxil və məxaric üzrə icrası artıq bələdiyyə işinin təşkili və inkişaf etdirilməsində nəzərəçarpacaq irəliləyişlərin olmasını göstərmişdir.



| №-si | Gəlirlərin adı | 2004-cü il | | Faizlə |
|---|---|---|---|---|
| | | Proqnoz | İcra | |
| 1. | Fiziki şəxslərdən torpaq vergisi | 54000,0 | 48218,8 | 89,3 |
| 2. | Fiziki şəxslərdən əmlak vergisi | 156000,0 | 123336,4 | 79,0 |
| 3. | Küçə reklamının yayımı üçün ödəniş | 8000,0 | 5015,7 | 62,7 |
| 4. | Bələdiyyə mülkiyyətində olan təşkilatlardan mənfəət vergisi | 12000,0 | -- | - |
| 5. | Bələdiyyə əmlakının icarəyə verilməsindən daxilolmalar | 120000,0 | 611166,2 | 51,0 |
| 6. | Bələdiyyə əmlakının özgəninkiləşdirilməsindən daxil olan ödənişlər | 3292000,0 | 3833334,3 | 100-dən çox |
| 7. | Avtomobil dayanacaqları üçün ödənişlər | 6000,0 | --- | - |
| 8. | Qanunla müəyyən edilən digər yerli vergi və ödənişlər | 36000,0 | 9195,6 | 25,6 |
| 9. | Kreditlərin alınması | 16000,0 | | - |
| 10. | Bələdiyyəyə məxsus olan bina və mülkiyyətin özəlləşdirilməsindən daxil olan ödəniş | | 130000,0 | - |
| 11. | Dövlət büdcəsindən subsidiya | 540000,0 | 30009,3 | 5,6 |
| | Gəlirlərin cəmi | 424000,0 | 4240276,3 | 100,0 |

Cədvəldən göründüyü kimi, Rəsulzadə bələdiyyəsi bütün imkanları səfərbər edərək yerli büdcə daxilolmalarını artıqlaması ilə yerinə yetirmişdir.

**2004-cü il bələdiyyənin xərclərinə diqqət yetirək:**

| № | Xərclərin adı | 2004-cü il | | |
|---|---|---|---|---|
| | | proqnoz | icra | faiz |
| 1. | Yerli orqanların saxlanmasına | 356000,0 | 355926,6 | 100,0 |
| 2. | Mənzil-kommunal təsərrüfat xərcləri | 2000,0 | | |
| 3. | Sənaye və tikinti xərcləri | 3770000,0 | 3774768,8 | 101,0 |
| 4. | Nəqliyyat və rabitə xərcləri | 12000,0 | 13977,4 | 117,0 |
| 5. | Digər xərclər | 100000,0 | 94852,6 | 95,0 |

Qeyd olunan nəticələr bələdiyyənin apardığı məqsədyönlü fəaliyyəti nəticəsində mümkün olmuşdur. Ötən dövr ərzində **Binəqədi rayon sakinlərinin fəxri olan Heydər Əliyev adına park,** Binəqədi şossesi

| № | Xərclərin adı | İllik proqnoz | 2005-ci il üçün | |
|---|---|---|---|---|
| | | | İcra | faiz |
| | Cəmi | 5436000,0 | 2963443,7 | 54,5 |
| | O cümlədən: | | | |
| 1. | Qanunvericilik və icra hakimiyyəti, yerli özünüidarəetmə orqanlarının saxlanılması xərcləri | 1649000,0 | 520442,4 | 31,6 |
| 2. | Təhsil xərcləri | - | | |
| 3. | Səhiyyə xərcləri | - | | |
| 4. | Sosial müdafiə və sosial təminat xərcləri | 260000,0 | 136661,0 | 52,7 |
| 5. | Mədəniyyət, incəsənət, kütləvi informasiya və bədən tərbiyəsi xərcləri | - | | |
| 6. | Mənzil - kommunal təsərrüfatı xərcləri | 60000,0 | 144920,0 | 2d |
| 7. | Kənd təsərrüfatı xərcləri | - | | |
| 8. | Sənaye və tikinti xərcləri | 3452000,0 | 2122981,5 | 62,0 |
| 9. | Nəqliyyat və rabitə xərcləri | 15000,0 | 31476,8 | 2d |
| 10. | Digər xərclər | - | 6962,0 | - |

2005-ci ildə M.Ə.Rəsulzadə bələdiyyəsi tərəfindən qəsəbə ərazisində aşağıdakı işlər görülmüşdür:

| № | Görülmüş işlərin adı | Məbləğ (min AZM manatı ilə) |
|---|---|---|
| 1. | Büdcənin sosial müdafiə və sosial təminat bölməsindən maddi yardımlar ödənişi cəmi<br>*Böyük Vətən müharibəsi əlillərinə, iştirakçılarına, qaçqın, köçkün, şəhid ailəsi, tənha qocalara, dəfn mərasiminə maddi kömək, Qurban və müqəddəs Ramazan bayramı münasibəti ilə imkansız ailələrə qurban əti və bayram payları verilməsi<br>*Bələdiyyənin işçilərinə maddi yardım (Novruz və Ramazan bayramlarında) | 136661,0<br>103131,0<br>33530,0 |
| 2. | 143 saylı orta məktəbdə təmir işləri | 22600,0 |
| 3. | Xutorda «Xeyir-şər evi»nin əsaslı təmiri | 64600,0 |
| 4. | 20 saylı poliklinikanın əlil uşaqların bərpa mərkəzinin əsaslı təmiri | 497650,0 |
| 5. | Heydər parkının hasarının sökülüb yenidən bərpa edilməsi | 309000,0 |
| 6. | C.Cabbarlı küçəsində su xəttinin çəkilişi və abadlaşdırma işlərinə | 54000,0 |
| 7. | 3126-cı məhəllədə qaz xəttinin çəkilişinə | 51000,0 |
| 8. | Binəqədi şossesinin sağ tərəfındəki bataqlığın torpaqla doldurularaq abadlaşdırılması | 120 000,0 |
| 9. | Binəqədi şossesinin sol tərəfındəki bataqlığın torpaqla doldurularaq abadlaşdırılması | 237800,0 |
| 10. | Məhəllədaxili yollarda təmir və asfalt örtüyünün çəkilişi | 48000,0 |
| 11. | Baksol yolunun (Binəqədi şossesinin başlanğıcından Nərimanov rayonunun inzibati sərhədinə kimi) əsaslı təmiri və asfalt örtüyünün çəkilişi | 673857,5 |
| 12. | Məişət tullantılarının yığılması və daşınması ilə əlaqədar avtomaşınların yanacaq xərci | 42820,0 |
| 13. | Məişət tullantılarını yığan və daşıyan avtomaşınların icarə haqqı | 8616,0 |
| Yekunu | | 2266604,5 |



2005-ci ildə gördüyümüz işlərdən ən yaddaqalanı uşaq polliklinikasında apardığımız əsaslı təmir işləri olmuşdur. Belə ki, həmin ilin fevral ayının 18-də Binəqədi rayon sakini E.Rəhimovanın Heydər Əliyev Fondununu prezidenti, YUNESKO-nun Xoşməramlı səfiri, millət vəkili Mehriban xanım Əliyevaya ünvanladığı müraciətə uyğun olaraq M.Ə.Rəsulzadə bələdiyyəsi Bakı şəhəri 20 nömrəli uşaq poliklinikasının nəzdində olan əlil uşaqların yeganə bərpa mərkəzində ciddi və əsaslı təmir-yenidən qurma işləri həyata keçirmişdir. Qeyd edək ki, adıçəkilən bərpa mərkəzinin fəaliyyəti 15 ildən artıq bir müddətdə dayandırılmışdı.

Xanım M.Əliyevanın bu problemin tezliklə həll olunması ilə əlaqədar tövsiyəsinə və Binəqədi rayon İcra Hakimiyyəti rəhbərliyinin müraciətinə əsasən M.Ə.Rəsulzadə bələdiyyəsi dərhal müsbət cavab vermiş, respublikamızda yeganə tibb ocağı sayılan əlil uşaqların bərpa mərkəzinin yenidənqurulması məqsədi ilə mütəxəsisləri cəlb etmiş, işçi qrupu yaratmış, bərpa və təmir işlərinin görülməsi üçün müvafiq sənədlər hazırlamışdır. Həmçinin bərpa mərkəzinin müasir avadanlıqla təchiz olunması məsələsini də nəzərdən qaçırmamışdır.

Qısa zaman kəsiyində bərpa mərkəzində yenidənqurma və əsaslı təmir işləri başa çatdırılmış, lazımi avadanlıqlar quraşdırılmışdır. Poliklinikanın qarşısındakı 250 kv. metrlik əraziyə asfalt salınmış və bəzək ağacları, kolları əkilmiş, hər biri 6 ton olmaqla 2 su çəni istifadəyə verilmişdir.

Sevindirici haldır ki, mərkəzin tam bərpası istiqamətində görülmüş bütün işlər yalnız M.Ə.Rəsulzadə bələdiyyəsinin maliyyə imkanları hesabın həyata keçirilmişdir.

**İndi isə 2006-ci il üçün bələdiyyənin fəaliyyətinə diqqət yetirək:**

(min manat)

| | Gəlirlərin adı | İllik proqnoz | 2006-cı il üçün | |
|---|---|---|---|---|
| | | | İcra | Faiz |
| | Cəmi | 126,8 | 852,3 | 67,2 |
| | O cümlədən: | | | |
| 1. | Fiziki şəxslərdən torpaq vergisi | 23,0 | 28,8 | 125,0 |
| 2. | Fiziki şəxslərdən əmlak vergisi | 32,0 | 34,4 | 107,5 |
| 3. | Yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi | - | - | - |
| 4. | Bələdiyyə mülkiyyətində olan müəssisə və təşkilatlardan mənfəət vergisi | 2,0 | - | - |
| 5. | Küçə (divar) reklamının yerləşdirilməsi və yayımı üçün ödəniş | 4,0 | 2,3 | 58,7 |
| 6. | Mehmanxana və kurort rüsumu | - | - | - |
| 7. | Avtomobillərin dayanacaqları üçün rüsum | 2,0 | - | - |
| 8. | Qanunla müəyyən edilən digər yerli vergi və ödənişlər | - | 0,3 | - |
| 9. | Bələdiyyə əmlakının özəlləşdirilməsindən gəlirlər | 1046,0 | 694,6 | 66,4 |
| 10. | Bələdiyyə əmlakının icarəyə verilməsindən gəlirlər | 30,0 | 15,7 | 52,3 |
| 11. | Lotoreyalardan daxil olan vəsait | - | - | - |
| 12. | Bələdiyyələrin fəaliyyətindən əldə edilən digər gəlirlər | 60,0 | 41,4 | 69,0 |
| 13. | Fiziki şəxslərin maliyyə yardımı və qrantları | 5,0 | 28,8 | 5,7 dəfə |
| 14. | Hüquqi şəxslərin maliyyə yardımı və qrantları | - | - | - |
| 15. | Beynəlxalq təşkilatların və fondların maliyyə yardımları və qrantları | - | | - |
| 16. | **Dövlət büdcəsindən ayrılan maliyyə yardımı** | 64,0 | 6,0 | 9,4 |

**2006-cı il üçün bələdiyyənin xərcləri barəsində məlumat**

(min manat)

| № | Xərclərin adı | İllik proqnoz | 2006-cı il üçün | |
|---|---|---|---|---|
| | | | İcra | faiz |
| | Cəmi | 126,8 | 718,1 | 56.6 |
| | O cümlədən: | | | |
| 1. | Qanunvericilik və icra hakimiyyəti, yerli özünüidarəetmə orqanlarının saxlanılması xərcləri | 413,0 | 237,6 | 57.5 |
| 2. | Təhsil xərcləri | - | - | - |
| 3. | Səhiyyə xərcləri | - | - | - |
| 4. | Sosial müdafiə və sosial təminat xərcləri | 84,0 | 50,1 | 59,7 |
| 5. | Mədəniyyət, incəsənət, kütləvi informasiya və bədən tərbiyəsi xərcləri | - | - | - |
| 6. | Mənzil - kommunal təsərrüfatı xərcləri | 48,0 | 34,7 | |
| 7. | Kənd təsərrüfatı xərcləri | - | - | - |
| 8. | Sənaye və tikinti xərcləri | 690,0 | 346,3 | 50,2 |
| 9. | Nəqliyyat və rabitə xərcləri | 33,0 | 49,3 | 149,5 |



Göründüyü kimi, 2006-cı ildə bələdiyyə həlli vacib sayılan sosial məsələlərin həllinə 718,1 min yeni Azərbaycan manatı həcmində vəsait xərcləmişdir. Qeyd etməliyik ki, bu vəsaitin 50,1 min manatı aztəminatlı ailələrə, Qarabağ müharibəsi iştirakçılarına və şəhid ailələrinə, imkansız ailələrə mütəmadi olaraq verilir. *(Oxucuların nəzərinə çatdırmaq istərdik ki, 2006-cı ilədək göstərilən maliyyə rəqəmləri köhnə Azərbaycan manatı ilə qeyd olunub.)*

**Qəsəbə bələyiyyəsi fəaliyyətə başladığı ilk dövrlərdə olduğu kimi, 2006-cı ildə də fəaliyyətini uğurla davam etdirməklə gördüyü işləri nəticə etibarı ilə keyfiyyətlə və çox sahəli olması üçün əlindən gələni əsirgəməmişdir. Belə ki, bələdiyyə özünün gündəlik fəaliyyətində, qəbul etdiyi qərarlarda, qəsəbənin abadlaşdırılması, əhalinini sosial problemlərinin həlli məsələlərini həmişə diqqət mərkəzində saxlamağa cəhd etmişdir. Sizin müzakirənizə təqdim olunan bu kitabda bələdiyyənin məhz 2006-cı ildə ayba ay gördüyü işlər ardıcıl olaraq diqqətinizə çatdırılıb.**

2006-cı ildə bələdiyyənin yeni təsdiq edilmiş strukturuna görə, sədr və 3 müavinin, dörd daimi komissiyanın - Yerli büdcə, və iqtisadiyyat daimi komissiyası, Hüquq məsələləri daimi komissiyası, Yerli sosial və ekoloji məsələlər daimi komissiyası, Humanitar məsələlər daimi komissiyasının və «Ümumi şöbə», «Mühasibatlıq şöbəsi», «Bələdiyyə mülkiyyətinə nəzarət şöbəsi», «Vergilər və ödənişlər şöbəsi», təmir–tikinti və abadlaşdırma şöbəsindən ibarət icra aparatının vasitəsilə qurmuşdur. 2006-cı ildə işçilərin orta aylıq sayı 78 nəfər, orta aylıq əmək haqqı 147,50 manat təşkil etmişdir.

2006-cı il ərzində bələdiyyənin 12 ümumi iclası keçirilmişdir. İclasların gündəliyinə müzakirə üçün 54 məsələ salınmış, onların sırasında təşkilati, büdcə, maliyyə, torpaq ayırma, təmir–tikinti və abadlaşdırma, maddi yardımlar və s. məsələlərə baxılmışdır.

Bələdiyyəyə daxil olan müraciətlərə aidiyyəti komissiya və şöbələr tərəfindən baxılıb araşdırılmış, müvafiq qərarlar qəbul olunmuş və cavablar verilmişdir.

M.Ə.Rəsulzadə bələdiyyəsinin 2006-cı il ərzində fəaliyyəti əsasən qəsəbə ərazisində mövcud olan sosial–iqtisadi, məişət, ekoloji və digər sahələrə aid məsələlərin həllinə yönəldilmişdir və qəsəbə sakinlərinin irad və təklifləri nəzərə alınaraq həyata keçirilmişdir. Bu da təsadüfi deyil,

çünki yerli özünüidarə orqanı olaraq bələdiyyə ilk növbədə inzibati ərazisində yaşayan əhalinin maraqları mövqeyindən çıxış edir. Qeyd etmək lazımdır ki, bələdiyyə 2006-cı il fəaliyyəti müddətində sözsüz ki, keçən illərin təcrübəsindən yararlanmışdır. Bələdiyyə üzvlərindən və bələdiyyə qulluqçularından formalaşmış işgüzar kollektivin birgə səyi nəticəsində il ərzində müxtəlif problemlərin həllində müəyyən müsbət nəticələr əldə olunmuşdur.

